NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

HEYDƏR ƏLİYEV



# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 27 fevral 2026-cı il, cümə № 2 (71)

# NDU-nun rektoru Elbrus İsayev media nümayəndələri üçün brifinq keçirib

***NDU-nun rektoru Elbrus İsayev media nümayəndələri üçün keçirdiyi brifinqdə 2025-ci ilin yekunları barədə geniş təqdimatla çıxış edib.***

Rektor 2025-ci ilin Naxçıvan Dövlət Universiteti üçün uğurlar, yeniliklər və nailiyyətlərlə yadda qaldığını qeyd edib. Bildirib ki, il ərzində universitet yalnız təhsil keyfiyyətinin yüksəldilməsi və tələbələrin elmi və sosial fəaliyyətlərinin inkişafı sahəsində deyil, həm də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi, mədəniyyət və incəsənət sahəsində tədbirlərin təşkili, habelə beynəlxalq reytinqlərdə yüksək mövqelərin əldə edilməsi istiqamətində mühüm nəticələr əldə edib. Universitet həm ölkə, həm də dünya miqyasında qabaqcıl layihələrdə iştirak edib, tədris və elmi keyfiyyətin yüksəldilməsi, tələbələrin uğurları, startap layihələri, beynəlxalq mərkəzlər və yeni elmi tədqiqat infrastrukturunun yaradılması ilə təqdirəlayiq nailiyyətlər əldə edib. Akademik heyətin təcrübəsinin artırılması məqsədilə bir çox yerli və beynəlxalq təlimlər təşkil olunub.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2025-ci ilin NDU üçün bir sıra strateji hədəflərin uğurlu icrası ilə yadda qaldığını qeyd edib, bütün istiqamətlərdə əldə olunan nəticələr barədə aşağıda sadalanan başlıqlar əsasında statistik məlumatları təqdim edib.

Elbrus İsayev çıxışında əvvəlcə təlim-tədris sahəsində qazanılan uğurlara diqqət çəkib.

Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetinə tələbə qəbulu zamanı ilk dəfə olaraq 600-700 intervalında bal toplayan tələbələrin sayında ciddi artım müşahidə olunub. Belə ki, ötən illə müqayisədə bu göstərici 41 nəfərdən 152 nəfərə yüksəlib, onlardan 1 nəfər Prezident təqaüdünə layiq görülüb. Eyni zamanda 500-dən yuxarı bal toplayaraq qəbul olunan tələbələrin sayı 337 nəfərdən 402 nəfərə çatıb. Dövlət sifarişi ilə qəbul olunan tələbələrin payı isə 46 faizdən 49 faizə yüksəldilib.

Bildirilib ki, yüksək göstəricilərə malik 142 nəfər tələbə ilk dəfə olaraq universitet tərəfindən təsis edilən 200 manat, 4 nəfər isə 250 manat məbləğində xüsusi təqaüdlə təmin olunub. Magistratura səviyyəsində 8 yeni ixtisaslaşma üzrə magistrant qəbulu aparılıb.

2024-2025-ci tədris ilində universitet tarixində rekord məzun göstəricisi qeydə alınıb. Həmin il 1645 nəfər bakalavr, 230 nəfər magistrant və 21 nəfər rezident məzun olub.

2024-2025-ci tədris ilinin II




yarısında universitet üzrə 1544 nəfər tələbə 43 müəssisəyə təcrübəyə göndərilib. Onlardan 443 nəfər pedaqoji, 1101 nəfər isə istehsalat təcrübəsi keçib. 2025-2026-cı tədris ilinin ikinci yarısında keçiriləcək təcrübələr üçün Naxçıvan Muxtar Respublikasının 38 dövlət və özəl müəssisəsi ilə danışıqlar aparılıb və müqavilələr imzalanıb. Həmçinin 2024-2025-ci tədris ilində ilk dəfə olaraq müxtəlif ixtisaslar üzrə 39 nəfər tələbə Naxçıvan MR Ali Məclisində təcrübə keçib.

Məlumata görə, ilk dəfə olaraq Azərbaycan Dillər Universitetinin təcrübə bazalarında tərcümə ixtisasları, Mərkəzi Gömrük Hospitalında "Tibb" ixtisası, ARETN yanında Torpaqşünaslıq və Aqrokimya İnstitutunda isə "Torpaqşünaslıq və aqrokimya" ixtisasında təhsil alan tələbələrin təcrübələri təşkil olunub. Bundan əlavə, Türkiyə Respublikasının Qars Qafqaz Universitetində "Baytarlıq təbabəti" ixtisası üzrə 3, Trabzon Texniki Universitetində isə "Energetika mühəndisliyi" ixtisası üzrə 7 tələbənin təcrübəsi keçirilib.

İyul ayında tələbə, həkim və rezidentlər də daxil olmaqla 300 nəfərdən ibarət tələbə və müəllim heyəti Türkiyənin nüfuzlu ali təhsil müəssisələrində – Hacettepe, Qazi, Ankara və Yeditepe universitetlərində yay istehsalat təcrübələrində və ixtisasartırma kurslarında iştirak edib.

Əcnəbi tələbələrin qəbulu üzrə ölkələrin sayı 14-dən 22-yə çatdırılıb. Universitet 1800 nəfər əcnəbi tələbə ilə bu göstərici üzrə ölkə liderliyini qoruyub saxlayıb. 2025-cin ildə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində 12 əcnəbi tələbə qəbul edilib. Həmçinin universitetdə tədrisi ingilis dilində aparılan 7 ixtisas üzrə tələbə qəbulu həyata keçirilib və nəticədə 121 nəfər həmin ixtisaslara qəbul olunub.

Rektorun sözlərinə görə, 2025-ci ildə universitetdə bir sıra yeni mərkəzlər ilk dəfə istifadəyə verilib. Bunlar Süni İntellekt Mərkəzi, Dayanıqlı İnkişaf Mərkəzi, akademik Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi, İnnovasiya Mərkəzi, İnklüziv Təhsil Mərkəzi, Psixoloji Xidmət və Uşaq İnkişaf Mərkəzi, Ömürboyu Təhsil və Futurologiya Mərkəzi, eləcə də Konservatoriyada Elektron Filarmoniya – LOLA sistemidir.

Qeyd olunub ki, LOLA sistemi musiqiçilər və təhsil müəssisələri üçün aşağı gecikməli (low latency) onlayn ifa və əməkdaşlıq platformasıdır. Dünya üzrə cəmi 30 universitetin konservatoriyasında bu platforma mövcuddur və onlardan biri NDU-da fəaliyyət göstərir.

Elbrus İsayev 2025-ci ildə universitetdə elmi-tədqiqat sahəsi üzrə əldə olunan nəticələr barədə məlumat verib.

Rektor bildirib ki, Tələbə Elmi Cəmiyyəti xətti ilə elmi-tədqiqatla məşğul olan tələbələrin sayı əyani təhsil alan tələbələrin 24 faizinə çatıb. Bu çərçivədə tələbələrin onlarla elmi məqaləsi xarici və respublika jurnallarında, eləcə də konfrans materiallarında nəşr edilib. Tələbə məqalələrinin bir neçəsi Scopus bazalı, yüksək impakt faktorlu jurnallarda dərc olunub.

Elbrus İsayevin sözlərinə görə, 2025-ci il ərzində universitetdə bir sıra startap layihələri də reallaşdırılıb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) dəstəyi və "SUP VC" şirkətinin təşkilatçılığı ilə Azərbaycanın regionlarında keçirilən "İnnostart" layihəsinin "Grand Final" mərhələsində NDU-nun startapçıları uğur qazanıblar. Ümumilikdə 4 komanda qalib gəlib ki, onlardan ikisi Naxçıvan Dövlət Universitetini təmsil edib. "ImYen" və "Specdeaf" komandalarının hər biri 12500 manat məbləğində investisiya dəyərində mükafat əldə edib. Qalib komandalar Türkiyənin Bilişim Vadisində inkubasiya proqramında iştirak etmək hüququ qazanıblar. Rektor qeyd edib ki, "İnnostart" müsabiqəsi çərçivəsində universitetin iki tələbə komandası ayrı-ayrılıqda 12500 manat məbləğində investisiya əldə edib və 2025-ci ildə tələbə komandalarının ölkədaxili və beynəlxalq startap yarışları üzrə qazandığı mükafatların ümumi dəyəri 40000 manat təşkil edib.

Rektorun açıqlamasına əsasən, 2025-ci ilin nəticələrinə görə universitet üzrə 3000-dən çox elmi nəşr qeydə alınıb. Bunların 150-si monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və metodiki vəsaitlərdən ibarət olub. Nəşr olunan 2000-dən çox məqalənin 1300-ü xaricdə dərc edilib və 300-dən çoxu Web of Science və Scopus bazalı nüfuzlu jurnallarda yer alıb. 600-dən çox tezisin isə 370-i xarici nəşrlərdə çap olunub. Bir akademik heyətə düşən nəşr sayı 5-dən çox olub. Elbrus İsayev bildirib ki, qeyd edilən bütün göstəricilər əvvəlki illərlə müqayisədə rekord nəticələrdir və 2025-ci ildə Scopus və Web of Science bazalarında yer alan nüfuzlu nəşrlərin sayı universitetin əvvəlki bütün dövrlər üzrə cəmi nəşr sayına çatıb.

Elbrus İsayev həmçinin vurğulayıb ki, ilk dəfə olaraq beynəlxalq kitabxana bazalarına – EBSCO, Clarivate (ProQuest Ebook Central, ProQuest Dissertations & Theses, ProQuest Multimedia) və Taylor & Francis platformalarına giriş imkanı yaradılıb və üzvlük sənədləri təsdiq edilib. Bununla da beynəlxalq elektron bazalardan istifadə imkanı bütün ixtisasları əhatə etməklə təxminən 40 milyona yaxın resursa çatdırılıb.

Rektor 2025-ci ildə universitetdə beynəlmiləlləşmə istiqaməti üzrə həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə məlumat verib.

Rektor bildirib ki, beynəlxalq əməkdaşlığın genişləndirilməsi universitetin əsas strateji prioritetlərindən biri olub.

Elbrus İsayevin sözlərinə görə, Türkiyənin Çankırı Karatekin Universiteti ilə ikili diplom proqramının icrası davam etdirilib. Eyni zamanda Macarıstanın Con fon Neyman Universiteti ilə "Kompüter mühəndisliyi" ixtisası üzrə ikili diplom proqramının icrasına başlanılıb. Amerikanın Corc Vaşinqton Universiteti ilə "Səhiyyənin idarəedilməsi" ixtisası üzrə ikili diplom müqaviləsi imzalanıb. İstanbul Universiteti ilə isə "Türk Dünyası Tarixi" və "Strateji İdarəetmə" ixtisaslarını əhatə edən iki magistratura proqramı üzrə ikili diplom protokolu rəsmiləşdirilib.

Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universiteti "GreenMetric" beynəlxalq reytinq cədvəlində ölkə üzrə ilk onluqda, dünya üzrə isə ilk 700 universitet sırasında yer alıb. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində ölkədə ilk dəfə olaraq 2025-2026-cı tədris ilində Naxçıvan Dövlət Universitetində "Tibb" ixtisası üzrə SABAH qruplarının ingilis dili bölməsi fəaliyyətə başlayıb və müsabiqə yolu ilə tələbə qəbulu aparılıb.

Elbrus İsayevin verdiyi məlumata əsasən, əsas prioritet istiqamətlər üzrə dünyanın müxtəlif ölkələrindən nüfuzlu universitetləri təmsil edən 50 əcnəbi professor universitetdə tədrisə cəlb olunub. Həmçinin Acıbadem Universiteti ilə ikitərəfli akademik əməkdaşlığa dair protokol imzalanıb.

2025-ci il ərzində Macarıstan parlamentinin vitse-spikeri Şandor Lejakın və TÜRKSOY-un baş katibi Sultan Raevin universitetə rəsmi səfərləri təşkil edilib, heyətlə görüşlər keçirilib. NDU TÜRKÜNİB-ə (Türk Universitetlər Birliyi) üzv seçilib və ORHUN mübadilə proqramına qoşulub.

Rektor bildirib ki, NDU-nun IELTS Qeydiyyat və İmtahan Mərkəzində 97 nəfər, SAT Qeydiyyat və İmtahan Mərkəzində isə 68 nəfər imtahan verib. TIES beynəlxalq təqaüd proqramı çərçivəsində Hacettepe Universitetinə 10 tələbənin bir semestrlik mübadiləsi reallaşdırılıb, ümumilikdə isə 50 tələbə müxtəlif mübadilə proqramlarında iştirak edib.

*ardı 2-ci səhifədə*

Elbrus İsayev həmçinin vurğulayıb ki, 20 əcnəbi tədqiqatçı universitetdə ortaq elmi-tədqiqatların aparılmasına cəlb edilib. 2025-ci ilin aprel ayında isə 6 ölkədən 21 əcnəbi professorun iştirakı ilə beynəlxalq təlim aylığı təşkil olunub. Tədbirlərdə 1500-ə yaxın tələbə, müəllim və ictimaiyyət nümayəndəsi iştirak edib.

2025-ci ildə sosial və mədəni sahə üzrə həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə məlumat verən rektor bildirib ki, bu istiqamətdə görülən işlər universitet həyatının zənginləşdirilməsinə



və tələbə-müəllim mühitinin daha da inkişafına xidmət edib.

Elbrus İsayevin sözlərinə görə, Naxçıvan Dövlət Universitetində ilk dəfə olaraq tələbə və müəllimlərdən ibarət "Qədim Xalq Çalğı Alətləri" ansamblı yaradılıb. Eyni zamanda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş Azərbaycan film musiqilərindən ibarət NDU Simfonik Orkestrinin konsert proqramı Naxçıvan şəhər Heydər Əliyev Sarayında təqdim edilib.

Rektor qeyd edib ki, NDU-nun təşkilatçılığı ilə türkiyəli astrofizik alim, NASA mütəxəssisi, ODTÜ alimi Umut Yıldız Naxçıvan Muxtar Respublikasına ilk dəfə səfər edib. Onun iştirakı ilə Heydər Əliyev Sarayında universitetin Simfonik Orkestrinin ifasında "Kosmosun səsi" adlı elmi-musiqili konsert proqramı nümayiş olunub.

Elbrus İsayevin verdiyi məlumata əsasən, professor İlber Ortaylının universitetdə mühazirələri təşkil edilib, həmçinin Heydər Əliyev Sarayında Naxçıvan ictimaiyyəti ilə görüşü keçirilib.

Rektorun sözlərinə görə, NDU-nun təşkilatçılığı ilə növbəti Karyera Sərgisi təşkil olunub. Sərgidə 640 vakant iş yeri təqdim edilib və tədbir çərçivəsində 132 nəfər yerində işlə təmin olunub.

Rektor qeyd edib ki, 2025-ci il ərzində Naxçıvan Dövlət Universitetinə yeni işə qəbul olunanların sayı 252 nəfər olub. Bu, son 5 ilin ən yüksək sayıdır.

NDU-nun idmanın müxtəlif sahələrində davamlı nailiyyətlər əldə etməsini vurğulayan rektor bildirib ki, 2025-ci ildə universitetin 24 tələbəsi müxtəlif idman yarışlarında iştirak edib, onlardan 13 nəfər bu yarışlarda qalibiyyət qazanıb.

Ali təhsil ocağının rektoru universitet-sənaye əməkdaşlığının universitetin strateji inkişaf planında əsas prioritet istiqamətlərdən biri olduğunu bildirib. Rektorun sözlərinə görə, bu sahədə davamlı fəaliyyət proqramları hazırlanaraq icra olunur və real nəticələr əldə edilib.

Elbrus İsayev qeyd edib ki, universitet-sənaye işbirliyi çərçivəsində son 5 il ərzində 61 müxtəlif dövlət və özəl müəssisə və təşkilatla əməkdaşlıq memorandumları imzalanıb. Bu əməkdaşlıqlar çərçivəsində ümumilikdə 325 görüş, təlim, birgə tədbir və qarşılıqlı fəaliyyət həyata keçirilib.

Rektorun açıqlamasına əsasən, 2025-ci il ərzində əlavə olaraq 11 dövlət və özəl müəssisə ilə yeni birgə əməkdaşlıq və sponsorluq müqavilələri imzalanıb. Bunlar "Azərbaycan Respublikası Hesablama Palatası", "Azərbaycan Milli Elmlər Akademiyası", "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya", "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi", "Azərbaycan Respublikası İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi", AZCON Holdinqə daxil olan "Milli Süni İntellekt Mərkəzi", "Kapitalbank" ASC, "Referans Naxçıvan Tibb Mərkəzi", "Azərişıq" ASC, "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı və "Invest-AZ İnvestisiya Şirkəti" QSC-dir. Bu istiqamətdə il ərzində ümumilikdə 74 görüş, təlim, birgə tədbir və müxtəlif qarşılıqlı fəaliyyətlər icra olunub.

Elbrus İsayev bildirib ki, NDU tərəfindən təşkil olunan bir çox genişmiqyaslı tədbirlərdə özəl sahibkarlıq subyektləri – "PAŞA Həyat Sığorta" ASC, "Kapitalbank" ASC, "Ləzzət Şirkətlər Qrupu" MMC, "Sirab" ASC, "Badamlı Mineral Sular" MMC, "Referans Naxçıvan Tibb Mərkəzi" və "APF GROUP" MMC tərəfdaş müəssisə kimi sponsorluq dəstəyi göstəriblər.

Rektorun sözlərinə görə, 26 dekabr 2025-ci il tarixində "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə bağlanılmış müqaviləyə əsasən, 2026-cı il ərzində Naxçıvan Dövlət Universitetində Kibertəhlükəsizlik laboratoriyasının qurulması və ixtisaslaşmış təlimlərin təşkili üçün 280000 manat məbləğində maliyyə dəstəyi nəzərdə tutulub.

Elbrus İsayev həmçinin vurğulayıb ki, NDU-nun təşəbbüsü ilə 2024 və 2025-ci illərdə Naxçıvan şəhərində iki böyük Karyera Sərgisi təşkil edilib. 5-8 iyun 2024-cü il tarixlərində Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən ilk Karyera Sərgisində 2000-dən çox gənc üçün iş və təcrübə imkanları təqdim olunub. Sərgidə universitetin əməkdaşlıq etdiyi 32 dövlət qurumu və 8 özəl şirkət müxtəlif ixtisaslar üzrə vakansiya və təcrübə proqramları təqdim edib.

II Karyera Sərgisi isə 10-12 iyun 2025-ci il tarixlərində Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında Səlahiyyətli Nümayəndəliyi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev elektron universitet istiqamətində həyata keçirilən yeniliklər barədə məlumat verib. Rektor bildirib ki, Naxçıvan Dövlət Universitetində (NDU) EduROAM xidmətinin tətbiqinə 2025-ci ilin sentyabr ayından etibarən başlanılıb.

Elbrus İsayevin sözlərinə görə, layihə Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyasının (GÉANT) dəstəyi ilə AzScience ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Bu proses çərçivəsində AzScience və NDU arasında autentifikasiya və identifikasiya proseslərini təmin edən RADIUS server infrastrukturu qurulub.

Rektor qeyd edib ki, EduROAM xidməti ilkin mərhələdə universitetin yataqxanasında məskunlaşan tələbələr üçün əlçatan olub, sonrakı mərhələdə isə bütün universitet tələbələrinin istifadəsinə verilib. Hazırkı dövrdə olan məlumata əsasən, NDU-da 1334 EduROAM tələbə hesabı yaradılıb və istifadəçi qeydiyyatı prosesi davam etdirilir.

Elbrus İsayev vurğulayıb ki, EduROAM (Education Roaming) beynəlxalq akademik şəbəkə təşəbbüsüdür və ali təhsil müəssisələrinin tələbə, müəllim və əməkdaşlarına dünya üzrə minlərlə universitet və tədqiqat mərkəzində vahid identifikasiya əsasında təhlükəsiz internet bağlantısı təqdim edir.

Rektor "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində universitet üzrə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Bildirib ki, Dövlət Proqramının 8.9.3.2.2-ci yarımbəndinə uyğun olaraq Naxçıvan Dövlət Universitetinin nəzdində ingilis dilli orta məktəbin yaradılması istiqamətində mühüm addımlar atılıb. Dövlət Proqramı vəsaiti hesabına məktəbin kitabxana fondunun zənginləşdirilməsi məqsədilə ümumi dəyəri 69970 manat olan 24 adda 550 ədəd elektron və çap Kembric dərslikləri və digər kitablar satın alınaraq məktəbə təhvil verilib.

Elbrus İsayevin sözlərinə görə, ingilisdilli orta məktəbin infrastrukturunun genişləndirilməsi məqsədilə ikinci korpusun tikintisi üçün ayrılmış ərazinin sənədləşdirilməsi yekunlaşdırılıb, reyestr və yerquruluşu sənədləri əldə olunub. Layihələndirmə üzrə müsabiqə elan edilsə də, müsabiqə uğursuz nəticələndiyi üçün yenidən müsabiqə elanının hazırlanması prosesi hazırda davam etdirilir. Eyni zamanda məktəbin infrastrukturunun beynəlxalq standartlara uyğunlaş-



dırılması məqsədilə bağlanmış müqavilə əsasında mərkəzi havalandırma, isitmə-soyutma, yanğın təhlükəsizliyi, səs və kamera sistemləri, eləcə də digər zəruri infrastruktur elementləri yaradılıb.

Rektor həmçinin Dövlət Proqramının 8.9.5.2.2-ci yarımbəndi – xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın gücləndirilməsi və birgə proqramların icrası istiqamətində görülən işlərə də toxunub. Bildirilib ki, Macarıstan Respublikasının Con fon Neyman Universiteti ilə 3+1 formatında "Kompüter mühəndisliyi" ixtisası üzrə (tədris dili ingilis dili olmaqla) 2025-2026-cı tədris ili üçün 30 tələbənin qəbulu həyata keçirilib.

Elbrus İsayev qeyd edib ki, İstanbul Universiteti ilə magistratura səviyyəsində "Strateji idarəetmə" və "Türk dünyası tarixi" ixtisasları üzrə ikili diplom proqramlarının icrası üçün ilkin razılıq əldə olunub. Bundan əlavə, Dövlət Proqramı vəsaiti hesabına NDU-da fəaliyyət göstərən IELTS və SAT mərkəzləri üçün ümumi dəyəri 139534 manat olan texniki avadanlıqlar satın alınıb.

Rektorun sözlərinə görə, ABŞ-ın Corc Vaşinqton Universiteti ilə magistratura səviyyəsində "Səhiyyənin idarə olunması" ixtisası üzrə ikili diplom proqramı ilə bağlı danışıqlar da davam etdirilib.

Elbrus İsayev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 8.9.4.2.1-ci yarımbəndinə uyğun olaraq ali təhsil müəssisələrində yeni məzmunlu proqramların tətbiqi, o cümlədən "Tibb" ixtisası üzrə SABAH qruplarının fəaliyyəti barədə məlumat verib.

Rektor bildirib ki, 2024-2025-ci tədris ilinin yaz semestri üzrə keçirilmiş müsabiqənin nəticələrinə əsasən, 7 fənn üzrə 7 müəllim SABAH qruplarında tədris aparmaq üçün seçilib. 2025-2026-cı tədris ili üzrə isə müsabiqə yolu ilə 15 nəfər Azərbaycan bölməsi, 5 nəfər ingilis bölməsi olmaqla ümumilikdə 20 tələbə SABAH qruplarına qəbul edilib.

Elbrus İsayevin sözlərinə görə, SABAH qruplarında tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə 5 nəfər əcnəbi professor tədris prosesinə cəlb olunub. Həmçinin Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin SABAH qruplarında təhsil alan tələbələr üçün Ankara Universitetində iki həftəlik yay istehsalat təcrübəsi təşkil edilib.

Rektor qeyd edib ki, Dövlət Proqramı vəsaiti hesabına ilkin ehtiyacların təmin edilməsi məqsədilə ümumi dəyəri 3436156 manat olan dərsliklər, yumşaq inventar və İT avadanlıqları satın alınıb və bu vəsait 30 dekabr 2026-cı il tarixində tam ödənilib.

Elbrus İsayev 2025-ci ildə universitetin Beynəlxalq Kembric Məktəbi üzrə həyata keçirilən tədbirlər və uğurlar barədə məlumat verib. Rektor bildirib ki, məktəb Kembric Universitetinin standartlarına uyğun yenidən əsaslı qurularaq istifadəyə verilib və bütün şagirdlər kitab və tabletlə təmin olunub.

Bununla yanaşı, Kembric Məktəbində ilk dəfə olaraq Beynəlxalq Olimpiadalara Hazırlıq Mərkəzi yaradılıb və şagirdlər ilk dəfə ingilis dilində "Elm sərgisi" təqdim ediblər. Məktəbin şagirdləri 2025-ci ildə beynəlxalq olimpiadalarda 6 medal qazanıblar.

Rektorun sözlərinə görə, məktəbin 3 müəllimi 3 beynəlxalq sertifikat proqramını uğurla tamamlayıb. 2025-ci ildə gimnaziyanı bitirən 36 məzun ali təhsil müəssisələrinə qəbul olunub, onların 23-ü fərqlənmə attestatı alıb. Məzunlardan 22 nəfər buraxılış imtahanında 250-dən yuxarı, 34 nəfəri isə 215-dən yuxarı bal toplayıb, məzunların ümumi bal ortalaması 251 bal təşkil edib.

Dövlət İmtahan Mərkəzi tərəfindən 27 aprel 2025-ci il tarixində keçirilən IX sinif buraxılış imtahanında gimnaziyanın 61 şagirdi iştirak edib. Nəticələrə görə, Rüqayyə Hüseynli 300 bal toplayaraq Naxçıvan üzrə birinci olmuş, ümumilikdə 47 şagird fərqlənmə attestatına layiq görülmüşdür.

Elbrus İsayev həmçinin bildirib ki, gimnaziyanın şagirdləri respublika və beynəlxalq səviyyəli fənn olimpiadalarında uğurla iştirak edib.

Respublika Fənn Müsabiqəsində riyaziyyat fənni üzrə 11, təbiət fənni üzrə 9, informatika fənni üzrə 4 şagird mükafatçılar sırasında yer alıb.

SASMO beynəlxalq olimpiadasında 3 gümüş, 3 bürünc medal və 2 fəxri ad qazanılıb.

Nəsrəddin Tusi adına II Fizika-Riyaziyyat Olimpiadasında 1 I, 1 II və 2 III yer əldə edilib.

AMO beynəlxalq olimpiadasında 1 qızıl, 4 gümüş, 11 bürünc medal və 5 sertifikat qazanılıb.

Nəsrəddin Tusi adına III Fizika-Riyaziyyat və İnformatika Olimpiadasının final turunda 1 I və 2 II yer tutulub.

Rektor vurğulayıb ki, bu nəticələr məktəbin beynəlxalq standartlara uyğun fəaliyyətinin və şagirdlərin yüksək hazırlıq səviyyəsinin göstəricisidir.

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

# Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq memorandumu imzalanıb













Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq görüşü keçirilib.

Əvvəlcə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nümayəndə heyəti NDU kampusu ilə tanış olub. Tanışlıq çərçivəsində nümayəndə heyəti NDU-da İnnovasiya Mərkəzi, Pedaqoji fakültədə fəaliyyət göstərən Texnologiya Mərkəzi, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində fəaliyyət göstərən Biotexnologiya Mərkəzi, Tibb fakültəsinin Sitologiya, Anatomiya kabinələri, Stomotoloji Simulyasiya Mərkəzi, NDU-nun Tələbə yataqxanası, Qonaq evi və NDU-nun Elmi Kitabxanasını gəzərək tədris infrastrukturu, elmi-tədqiqat imkanları və tələbələr üçün yaradılan şəraitlə yaxından tanış olublar.

Tanışlıqdan sonra NDU-nun İncəsənət fakültəsində baş tutan tədbirdə ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək qonaqlara universitetin tarixi, fəaliyyəti, inkişafı haqqında ətraflı məlumat verib və tədbirin əhəmiyyətindən danışıb. Qeyd edib ki, 1967-ci ildə əsası qoyulan Naxçıvan Dövlət Universiteti uzun illərdir Naxçıvan Muxtar Respublikasının kadr potensialının təmin olunmasına, sosial inkişafına, ixtisaslı mütəxəssislərin yetişdirilməsinə mühüm töhfələr verir. Rektor universitetin il ərzində qazandığı uğurlardan, elmi-tədqiqat, təlim-tədris, beynəlmiləlləşmə sahələrində əldə etdiyi nailiyyətlərdən bəhs edib. 2025-ci ildə 252 nəfərin işə qəbulu ilə NDU-nun Naxçıvanda ən çox işəgötürən müəssisə olduğunu vurğulayıb.

UNEC-in rektoru Ədalət Muradov çıxışında görüşdən məmnunluğunu bildirib, rəhbərlik etdiyi ali təhsil müəssisəsinə dair məlumatları bölüşüb, elmin inkişafı üçün atılan addımlardan danışıb. UNEC-in “Elmin populyarlaşdırılması” layihəsindən bəhs edərək bu layihənin elmin cəlbediciliyini və gənc nəslin elmə marağının artırılması məqsədi daşıdığını qeyd edib. Azərbaycan alimlərinin, onların kitablarının cəmiyyətə tanıdılmasının da əsas missiyalardan biri olduğunu vurğulayıb. Ədalət Muradov NDU haqqında təəssüratlarından danışıb: “Naxçıvan Dövlət Universiteti, həqiqətən də, böyük uğurlara imza atan universitetdir” - deyə qeyd edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumda hər iki universitetin elektron kitabxanalarının inteqrasiyası, ortaq tədqiqatların aparılması öz əksini tapıb. UNEC-in rektoru Ədalət Muradov kitabxanaların inteqrasiyasının ilk belə təşəbbüs olmasını vurğulayıb, ortaq tədqiqatların aparılmasının universitetlər arasında elmi əməkdaşlığa ciddi təkan verə biləcəyini qeyd edib.

ADPU-nun prorektoru, professor Mahirə Nağıqızı yenidən NDU-da olmaqdan məmnunluğunu bildirib, hər iki rektoru təbrik edərək UNEC ilə NDU arasında imzalanan əməkdaşlıq müqaviləsini mühüm addım kimi dəyərləndirib. Cənab Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması, dövlət dilinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərmanını, ana dilimizlə bağlı verdiyi müsahibələri diqqətə çatdırıb. Mahirə Nağıqızı Azərbaycan dilinin saflaşdırılması, bu sahədə mövcud problemlər və onların həlli yolları, həmçinin milli-mənəvi dəyərlərin qorunmasından danışıb.

AMEA-nın həqiqi üzvü, akademik Muxtar İmanov çıxışında “Elmin populyarlaşdırılması” layihəsinin əhəmiyyətindən bəhs edərək bu layihənin elmin kütləviləşdirilməsində oynadığı roldan bəhs edib. Azərbaycan dilinin qorunması, saflaşdırılması məsələlərinə toxunub.

Sonda görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib, foto çəkdirilib.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat fəaliyyətini əks etdirən sərgi təşkil olunub

Naxçıvan Dövlət Universitetində keçirilən tədbir çərçivəsində fakültələrin elmi-tədqiqat fəaliyyətini əks etdirən sərgi təşkil olunub. Sərgidə universitetin müxtəlif fakültə və kafedralarının elmi potensialını nümayiş etdirən materiallar təqdim edilib.

Ekspozisiya zamanı fakültə əməkdaşları tərəfindən hazırlanmış və dərc edilmiş monoqrafiya və dərsliklər, elmi-tədqiqat işləri, əldə olunmuş sertifikatlar, eləcə də Scopus və Web of Science beynəlxalq elmi bazalarında dərc edilmiş məqalələr nümayiş etdirilib.

Sərgidə, həmçinin Tələbə Elmi Cəmiyyəti (TEC) tərəfindən il ərzində icra olunmuş layihələrin proqramları, tələbələr tərəfindən yazılmış elmi məqalələr, elmi müsabiqə və yarışlarda qazanılmış kubok və medallar, müxtəlif diplom və mükafatlar yer alıb.

Təqdim olunan materiallar universitetdə elmi fəaliyyətin miqyasını, tədqiqatların say və keyfiyyət göstəricilərini, eləcə də akademik heyət və tələbələrin elmi proseslərdə fəal iştirakını əyani şəkildə nümayiş etdirib.













# UNEC nümayəndə heyəti NDU-nun nəzdində İngilis dili Təmayüllü Gimnaziya və Beynəlxalq Kembric Məktəbində olub

UNEC nümayəndə heyəti Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İngilis dili Təmayüllü Gimnaziya və Beynəlxalq Kembric Məktəbində olub, "Elm gözəldir: məktəbdən elmə" layihəsi çərçivəsində şagird və müəllim kollektivi ilə görüşüb.

Görüşdən öncə Beynəlxalq Kembric Məktəbinin VII sinif şagirdləri "Science" fənni üzrə hazırladıqları elmi layihələri təqdim ediblər. Təqdimatlar zamanı şagirdlər tədqiqat aparmaq və elmi nəticələri təqdim etmək bacarıqlarını nümayiş etdiriblər.









# NDU və İTÜ nanotexnologiya və energetika sahəsində birgə laboratoriyalar qurmağa başlayır

Naxçıvan Dövlət Universiteti ilə İstanbul Texniki Universiteti arasında nanotexnologiya və energetika sahələrində birgə laboratoriyaların yaradılması istiqamətində əməkdaşlıq həyata keçiriləcək. Tərəflər doktorantura proqramları, ikili diplom, startap layihələri tratura və doktorantura səviyyələrində birgə proqramların təşkili, elmi-tədqiqatların aparılması və ortaq layihələrin icrası istiqamətlərində əməkdaşlığı prioritet kimi müəyyən ediblər.

Eyni zamanda "Kompüter mühəndisliyi" və "Rəqəmsal texnologiyalar" üzrə birgə proqramların hazırlanması da gündəmdədir.

Razılaşmaya əsasən, Naxçıvan və İstanbul şəhərlərində 2-3 həftəlik "Advanced Engineering & Technology School" çərçivəsində yay və qış məktəbləri təşkil ediləcək. Proqram çərçivəsində süni intellekt və Data Science, robototexnika, kibertəhlükəsizlik istiqamətlərində təlimlər keçiriləcək.





və yay-qış məktəbləri üzrə əməkdaşlığı genişləndirəcək. Bu barədə 2026-cı il fevralın 10-da keçirilən görüş zamanı razılıq əldə olunub.

Görüş çərçivəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ilə İstanbul Texniki Universitetin rektoru, professor Hasan Mandal elmi rəqabətliliyin artırılması, tələbə və müəllim mübadiləsinin genişləndirilməsi, magistratura və doktorantura səviyyələrində ixtisasları üzrə doktorantura təhsili və elmi rəhbərlik sahəsində əməkdaşlıq, birgə elmi-tədqiqat layihələrinin hazırlanması da planlaşdırılır.

Tərəflər NDU və İTU tələbələrinin iştirakı ilə Agrotech, EdTech, enerji texnologiyaları və süni intellekt əsaslı tətbiq sahələrini əhatə edən "Startup Bootcamp" layihəsinin icrasını nəzərdə tutur.

Görüş zamanı texnopark sahəsində əməkdaşlıq, birgə layihələrin icrası, İTU-nun bu istiqamətdə təcrübəsindən yararlanmaq və birgə seminarların təşkili məsələləri də müzakirə olunub. Süni intellekt texnologiyaları, kompüter, elektrik və elektronika mühəndisliyi sahələri üzrə ikili diplom proqramlarının yaradılması əsas prioritetlərdən biri kimi vurğulanıb.

Görüş zamanı bildirilib ki, "Bu əməkdaşlıq hər iki universitetin elmi potensialının birləşdirilməsi, innovativ mühitin gücləndirilməsi və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır".

Qeyd edək ki, universitetlər arasında ilk əməkdaşlıq protokolu 2022-ci ildə imzalanıb, 2025-ci ildə isə mövcud müqavilə yenilənib.

*Badəm Əliyeva*
*Naxçıvan Dövlət Universiteti Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvan Dövlət Universiteti ilə Marmara Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

Fevralın 11-də Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin Marmara Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi NDU-nun rektoru Elbrus İsayev və Marmara Universitetinin rektoru Mehmet Emin Okur imzalayıblar.





Müqavilənin əsas məqsədi hər iki ali təhsil müəssisəsinin təhsil və elmi-tədqiqat fəaliyyətləri üzrə qarşılıqlı marağın artırılması, birgə elmi layihə və təşəbbüslərin hazırlanması istiqamətində əməkdaşlığın genişləndirilməsi, həmçinin müəllim, tələbə və inzibati heyət mübadiləsinin həyata keçirilməsidir.

Sənədə əsasən, Marmara Universitetinin Türkiyat Araşdırmaları İnstitutu da daxil olmaqla müxtəlif tədqiqat mərkəzləri ilə birgə konfransların təşkili, ortaq elmi araşdırmaların aparılması nəzərdə tutulur. Eyni zamanda NDU ilə əməkdaşlıq çərçivəsində daha çox sosial elmlər sahəsində tədris və elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, 1883-cü ildə əsası qoyulan Marmara Universiteti Türkiyənin ən köklü və nüfuzlu ali təhsil müəssisələrindən biridir. Universitet xüsusilə "Tibb", "Mühəndislik", "Hüquq", "İqtisadiyyat", "Beynəlxalq münasibətlər" və "Pedaqoji" ixtisaslar üzrə güclü akademik bazaya malikdir. Geniş elmi-tədqiqat infrastrukturu, beynəlxalq əməkdaşlıq şəbəkəsi və çoxşaxəli tədris imkanları ilə Marmara Universiteti regionun aparıcı ali təhsil ocaqlarından hesab olunur.



Əməkdaşlığın mühüm istiqamətlərindən biri tibb, mühəndislik və iqtisadiyyat sahələrində xarici professorların Naxçıvan Dövlət Universitetinə dəvət olunmasıdır. Eyni zamanda NDU-nun Tibb fakültəsinin tələbələri Marmara Universitetində staj keçmək imkanı əldə edəcəklər. Marmara Universitetinin professorları isə NDU-nun magistrant və doktorantlarına elmi rəhbərlik edəcəklər.

Bu əməkdaşlıq hər iki ali təhsil müəssisəsinin elmi-tədqiqat potensialının gücləndirilməsinə, təcrübə mübadiləsinin genişlənməsinə və beynəlxalq akademik inteqrasiyanın dərinləşdirilməsinə mühüm töhfə verəcək.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Naxçıvan Dövlət Universiteti və Memar Sinan Gözəl Sənətlər Universiteti arasında ikili diplom proqramı həyata keçiriləcək

Naxçıvan Dövlət Universiteti ilə Memar Sinan Gözəl Sənətlər Universiteti arasında "Dayanıqlı şəhərsalma və regionların planlaşdırılması" ixtisası üzrə ikili diplom magistr proqramının həyata keçirilməsi barədə razılıq əldə olunub. Bununla bağlı iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq memorandumu imzalanıb.









Memorandum NDU-nun rektoru Elbrus İsayev və Memar Sinan Gözəl Sənətlər Universitetinin rektoru Ahmet Sacit Açıkgözoğlu tərəfindən imzalanıb. Sənədə əsasən, tərəflər memarlıq və incəsənət sahələrində genişmiqyaslı əməkdaşlıq edəcək, birgə layihələr və akademik təşəbbüslər həyata keçirəcəklər.

Bu əməkdaşlıq ölkəmizdə elan olunmuş "Şəhərsalma və Memarlıq İli" çərçivəsində xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda Azərbaycan memarlıq məktəbinin görkəmli nümayəndəsi Memar Əcəminin 900 illik yubileyinin qeyd olunduğu bir dövrdə belə bir təşəbbüsün reallaşması rəmzi və tarixi məna kəsb edir.

1882-ci ildə "Sanayi-i Nefise Mektebi" adı ilə əsası qoyulan Memar Sinan Gözəl Sənətlər Universiteti Türkiyənin ilk incəsənət ali məktəbi kimi tanınır. Universitet memarlıq, təsviri incəsənət, dizayn və şəhərsalma sahələrində dərin elmi ənənəyə, güclü professor-müəllim heyətinə və beynəlxalq akademik əlaqələrə malikdir.

Tarixi kampusu, zəngin akademik məktəbi və yaradıcılıq mühiti ilə seçilən ali təhsil ocağı Türkiyədə memarlıq təhsilinin formalaşmasında mühüm rol oynayıb və bu gün də regionun ən nüfuzlu incəsənət universitetlərindən biri hesab olunur.

Naxçıvan Dövlət Universitetində də memarlıq və incəsənət istiqamətləri son illərdə sürətli inkişaf mərhələsinə qədəm qoyub. Universitetdə memarlıq, dizayn və təsviri incəsənət sahələrində müasir tədris infrastrukturu yaradılıb, studiya və emalatxanalar yenilənib, tələbələrin yaradıcılıq potensialının inkişafı üçün geniş imkanlar formalaşdırılıb.

NDU tələbələri respublika və beynəlxalq səviyyəli müsabiqə və sərgilərdə uğurla çıxış edir, universitet isə mədəni irsin qorunması, şəhər mühitinin planlaşdırılması və regional inkişaf layihələrində fəal iştirak edir. Ali məktəb həmçinin fənlərarası tədqiqatlara və innovativ yanaşmalara üstünlük verir.

Əməkdaşlığın əsas təşəbbüslərindən biri "Memar Əcəmi – Mimar Sinan Memarlıq Parkı" layihəsidir. Layihə Azərbaycan və Türkiyə memarlıq məktəblərinin iki görkəmli nümayəndəsi – Memar Əcəmi və Memar Sinanın irsini vahid konseptual məkanda birləşdirməyi hədəfləyir. Bu təşəbbüs ortaq tarixi-mədəni dəyərlərin memarlıq müstəvisində ifadəsinə xidmət edəcək.

Protokola əsasən, Memar Sinan Gözəl Sənətlər Universitetinin professorları NDU-ya dəvət olunacaq, memarlıq, təsviri incəsənət, şəhərsalma və fənlərarası tədqiqat istiqamətləri üzrə birgə simpoziumlar, konfranslar, sərgilər, qısamüddətli kurslar və seminarlar təşkil ediləcək.

İmzalanma mərasimində tələbə və professor-müəllim heyətinin qarşılıqlı mübadiləsi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi vurğulanıb. Bununla yanaşı, mədəni irsin qorunması, memarlıq abidələrinin mühafizəsi, ətraf mühitin idarə olunması və dizayn sahələrində birgə təşəbbüslərin həyata keçirilməsi də razılaşmada öz əksini tapıb.

Bu əməkdaşlıq iki qardaş ölkənin ali təhsil məkanında memarlıq və incəsənət sahəsində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Naxçıvan Dövlət Universitetində Yıldız Texniki Universitetinin dəstəyi ilə Biotexnologiya Mərkəzi qurulur

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 13 fevral 2026-cı il tarixində Yıldız Texniki Universitetinə səfər edib. Səfər çərçivəsində o, universitetin rektoru, professor Eyüp Debik ilə görüş keçirib.

Görüş zamanı iki ali təhsil müəssisəsi arasında biotexnologiya və tətbiqi elmlər sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Tərəflər Naxçıvan Dövlət Universitetində Yıldız Texniki Universitetinin elmi-metodiki və texniki dəstəyi ilə Biotexnologiya Mərkəzinin yaradılması barədə razılığa gəliblər.



Bildirilib ki, biotexnologiya istiqaməti üzrə Türkiyənin qabaqcıl ali təhsil müəssisələrindən biri olan Yıldız Texniki Universitetinin güclü mühəndislik məktəbi, beynəlxalq indeksli elmi nəşrlərdə yüksək aktivliyi və inkişaf etmiş texnopark infrastrukturu onu regionun aparıcı tədqiqat mərkəzlərindən birinə çevirir. Bu sahədə formalaşmış elmi baza, müasir laboratoriya infrastrukturu və güclü kadr potensialı yeni mərkəzin effektiv fəaliyyətinə mühüm töhfə verəcək.





Mərkəzin müasir avadanlıqlarla təchiz olunması, birgə elmi-tədqiqat layihələrinin icrası, doktorant və magistrantların tədqiqat imkanlarının genişləndirilməsi əsas prioritetlər kimi müəyyənləşdirilib.

Bununla yanaşı, texnopark və startap fəaliyyətləri, innovasiya layihələri, universitet-sənaye əməkdaşlığı sahəsində təcrübə mübadiləsi aparılıb. “İnformasiya təhlükəsizliyi” ixtisası üzrə magistratura səviyyəsində ikili diplom proqramının hazırlanması, tələbə və professor-müəllim heyətinin mübadilə proqramlarının təşkili istiqamətində də fikir mübadiləsi aparılıb.

Görüşün yekununda tərəflər mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi, Biotexnologiya Mərkəzinin yaradılması ilə bağlı konkret fəaliyyət planının hazırlanması, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi və beynəlxalq qrant proqramlarında ortaq iştirak barədə razılığa gəliblər.

Qeyd edək ki, universitetlər arasında ikitərəfli əməkdaşlıq müqaviləsi 2021-ci ildə imzalanıb.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# “Azərbaycan Mədəniyyəti – 2040” Konsepsiyasının icrası ilə bağlı strateji istiqamətlər müəyyənləşdirilib

Naxçıvan Dövlət Universitetində mədəniyyət sahəsinə dair strateji hədəflərin müəyyənləşdirilməsi məqsədilə müşavirə təşkil olunub.

Müşavirə Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2026-cı il tarixli Sərəncamına əsasən təsdiq edilmiş “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasından irəli gələn vəzifələrin universitet çərçivəsində icrasına həsr olunub. NDU üzrə mədəniyyət strategiyasının əsas istiqamətləri müzakirə edilib və müvafiq tapşırıqlar verilib.

Universitetin rektoru Elbrus İsayev müşavirədə son dövrlərdə, xüsusilə 2025-ci il ərzində mədəniyyət sahəsində qazanılmış uğurlardan bəhs edib. Rektor NDU-da mədəniyyət sahəsinin sistemli inkişafı baxımından yeni mədəniyyət strategiyasının hazırlanmasına ehtiyac olduğunu bildirib. Bu planın əsas məqsədi Naxçıvan Dövlət Universitetində sağlam akademik və etik mühitin möhkəmləndirilməsi, tələbə və əməkdaşlarımızın yaradıcı potensialının üzə çıxarılması, milli-mədəni irsimizin qorunması və elmi əsaslarla təbliği, həmçinin universitetimizin regional və beynəlxalq mədəni mübadilə proseslərində iştirakının daha da genişləndirilməsidir.

Bu istiqamətlər üzrə konkret hədəflər müəyyənləşdirilib və onların ardıcıl icrası üçün lazımı şəxslərə müvafiq tapşırıqlar verilib.

Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Nicat Yaqubov çıxışında universitetin illik, beşillik və onillik strategiyasının ümumi müddəaları və əsas vəzifələri barədə ətraflı məlumat verib. Bildirib ki, strateji planın uğurlu icrası üçün effektiv nəzarət və monitorinq mexanizmlərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Strategiyanın həyata keçirilməsi 2026–2030, 2031–2035 və 2036–2040-cı illəri əhatə edən üç mərhələ üzrə planlaşdırılıb.

Prorektor çıxışında həmçinin multikulturalizm və Azərbaycan dili məsələsinə toxunub, milli-mənəvi dəyərlərin qorunması və Ana dilinin universitet mühitində daha fəal təşviqinin vacibliyini vurğulayıb.



Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruqiyyə Kərimova xarici tələbələrin də mədəniyyət və incəsənət sahəsinə maraq göstərdiyini, onların universitetin mədəniyyət strategiyası çərçivəsində yüksək enerji və həvəslə iştirak edərək uğur qazana biləcəklərini nəzərə çatdırıb.

Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov, Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekan əvəzi Abbas Əhmədov, İncəsənət fakültəsinin dekanı Cavid İsmayılov və digər çıxışçıların mədəniyyət sahəsində peşəkar kadrların hazırlanması mexanizmləri və perspektiv istiqamətlər ilə bağlı hesabat və təklifləri müzakirə edilib.

Tədbirdə iştirakçıların fikirləri dinlənilib, müzakirələr qarşılıqlı fikir mübadiləsi ətrafında davam etdirilib. Səsləndirilən təkliflər fakültələrin gələcək fəaliyyət planlarında nəzərə alınması məqsədilə qeydə alınıb.

Müşavirə universitetdə mədəni siyasətin institusional əsaslarla və uzunmüddətli strateji baxış çərçivəsində həyata keçirilməsinə xidmət edən mühüm platforma kimi dəyərləndirilib.





*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# Beynəlxalq Ana Dili Günü qeyd olunub



Naxçıvan Dövlət Universitetinin konfrans zalında 21 Fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, dilimiz milli kimliyimizi təsdiq edən əsas atributumuz, milli varlığımızdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dili kimi istifadəsinin genişləndirilməsi haqqında" Sərəncamını və çıxışlarında Ana dili ilə bağlı səsləndirdiyi fikirləri diqqətə çatdıran rektor bu istiqamətdə qarşıda duran vəzifələrdən və əsas problemlərdən danışıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Arifə Zeynalova Azərbaycan dilinin keçdiyi tarixi inkişaf mərhələlərindən söz açıb. Dövlət müstəqilliyi bərpa olunduqdan sonra ölkədə aparılan dil siyasətinə toxunaraq bu sahədə Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dil quruculuğu işlərindən danışıb. Bildirib ki, Beynəlxalq Ana Dili Günü 1999-cu ildə UNESCO tərəfindən təsis edilib, bu gün 2000-ci ildən etibarən hər il 21 fevralda bütün dünyada qeyd olunmağa başlayıb.







Azərbaycan dili və ədəbiyyatının tədrisi ixtisası üzrə I kurs magistrant Fatimə Zaxarzadə çıxışında Ana dilimizin qorunmasında gənclərin rolundan, dilin rəqəmsal mühitdə inkişafından bəhs edib.

Tədbirin bədii kompozisiya hissəsində Tarix-filologiya fakültəsinin tələbələrinin ifasında Tofiq Bayramın "Ana dilim" şeiri bədii qiraət edilib və İncəsənət fakültəsinin "Belkanto" vokal qrupunun ifasında Emin Sabitoğlunun "Şirin dil" mahnısı səsləndirilib.

---

# Naxçıvan Dövlət Universitetində 1708 tələbənin iştirakı ilə təcrübələrə start verildi

Naxçıvan Dövlət Universitetində 2025/2026-cı tədris ilinin II yarısında təşkil olunacaq təcrübələrin başlanğıc konfransı keçirilib. Konfransda təcrübə keçiriləcək müxtəlif müəssisələrin nümayəndələri, NDU-nun professor-müəllim heyəti və tələbələr iştirak ediblər.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq pedaqoji və istehsalat təcrübəsinin, universitet-sənaye əməkdaşlığının peşəkar kadr hazırlığındakı əhəmiyyətindən danışıb. Rektor NDU-nun regionun əmək bazarının tələblərinə uyğun olaraq istənilən müəssisə üçün ixtisaslı mütəxəssislər hazırlamaq potensialına malik olmasını qeyd edib. Universitetə davamlı olaraq əcnəbi professorların dəvət olunmasının, tələbələrin xaricdə staj keçməsinin, həmçinin tələb və sifariş üzrə universitetdə seçmə fənlərin tədris olunmasının peşəkar kadr hazırlığına mühüm töhfə verdiyini bildirib. Təcrübə keçəcək tələbələrə uğurlar arzulayıb və bu dövrü keyfiyyətli keçirmələri ilə bağlı tövsiyələr verib.

Tədrisin təşkili şöbəsinin müdiri Aynurə Seyidova təcrübələrin təşkilinə dair tələblər və qarşıda duran vəzifələr barədə məlumat verib. Qeyd edib ki, 2025-2026-cı tədris ilinin ikinci yarısında, ümumilikdə, Naxçıvan Dövlət Universitetinin 1708 nəfər buraxılış kurs tələbəsi təcrübədə iştirak edəcək. 68 ixtisas üzrə 1311 tələbə istehsalat təcrübəsinə yollanacaq. Onlardan 1080-i əyani, 164-ü qiyabi şöbədə, 67 tələbə isə əlavə ali təhsil üzrə təhsil alır. Təcrübələr 1, 4, 5, 14 və 20 həftəlik olacaq. 38 müxtəlif müəssisədə təşkil olunacaq istehsalat təcrübəsinə 130 nəfər müəllim rəhbərlik edəcək.

Ümumilikdə, 20 ixtisas üzrə 397 tələbə isə pedaqoji təcrübədə olacaq, pedaqoji təcrübəyə 43 nəfər müəllim rəhbərlik edəcək. Təcrübələrin keçirilməsi üçün təcrübə bazası kimi Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziya, Naxçıvan şəhərində yerləşən 12 ümumtəhsil məktəbi və Babək rayon Şıxmahmud kənd tam orta məktəbi seçilib. Naxçıvan Dövlət Universiteti ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi arasında müqavilə imzalanıb.

Tibb fakültəsinin "Əczaçılıq və biokimya" kafedrasının müdiri Surə Rəhimova çıxışında nəzəri biliklərin praktikada tətbiqinin peşə bacarıqlarının inkişafı, iş mühitinə adaptasiya, tələbələrin gələcək iş yeri ilə ilkin əlaqələrin qurulması baxımından önəmini qeyd edib.

Heydər Əliyev adına tam orta məktəbin müəllimi Aysel Əsgərova isə çıxışında pedaqoji təcrübənin tələbləri və müəllimlik peşəsinin əsaslarından danışıb.

Konfrans təcrübə prosesinin məqsəd və vəzifələrinin aydın şəkildə müəyyənləşdirilməsi və tələbələrin peşə fəaliyyətinə daha hazırlıqlı şəkildə başlamasına zəmin yaradıb.





*Gülay Tahirli*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# 20 Yanvar faciəsinin 36-cı ildönümü anılıb

Əvvəlcə NDU İncəsənət fakültəsinin müəllim və tələbələrinin 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş əsərlərindən ibarət rəsm sərgisinə baxış olub.



Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

NDU-nun rektoru Elbrus İsayev bildirib ki, 20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə hüzn günü deyil, həm də milli oyanışın başlandığı, xalqımızın qəhrəmanlığını nümayiş etdirdiyi gündür. Bu qanlı faciə Azərbaycan xalqının mübarizə əzmini boğmağı qarşısına məqsəd qoyan SSRİ-nin çirkin planının nəticəsi idi.




Amma o bir gecənin vəhşəti xalqın əzmini, iradəsini sındıra bilmədi. Qanlı Yanvar II Qarabağ müharibəsində qazanılan zəfərin əsas təməli oldu.

Rektor qeyd edib ki, 20 Yanvar hadisəsinə ilk olaraq kəskin etirazını bildirən şəxs Ulu Öndər Heydər Əliyev olub: “20 Yanvar hadisəsindən dərhal sonra Moskvada bəyanatla çıxış etmək, SSRİ rəhbərliyini birbaşa ifşa etmək, baş verənləri o dövrün dünya mətbuatına çatdırmaq Ümummilli Liderin həmişəki qətiyyətinin nümunəsi idi”.

Fəlsəfə elmləri doktoru, professor, Əməkdar müəllim Məmməd Rzayev çıxışında vurğulayıb ki, bu faciə Azərbaycan xalqına ağır itkilər yaşatmaqla bərabər, SSRİ-nin sosial dayaqlarını zəiflədib, onun nüfuzuna və idarəetmə qüdrətinə ciddi zərbə vurub.

Fəlsəfə elmləri doktoru, dosent, Əməkdar müəllim Qərib Allahverdiyev 20 Yanvar hadisəsi ərəfəsində Naxçıvandakı proseslərin iştirakçısı və şahidi kimi çıxış edərək həmin dövrdə baş verən ictimai-siyasi hadisələr barədə xatirələrini bölüşüb. Vurğulayıb ki, 1990-cı ilin yanvarında Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərarla Naxçıvanın SSRİ-nin tərkibindən çıxması Azərbaycan xalqının azadlıq yolunda qətiyyətinin rəmzi idi.



NDU-nun “Azərbaycanın yeni və ən yeni tarixi” ixtisası üzrə I kurs magistrantı Yağmur Mahmudova Qanlı Yanvar hadisəsinin Azərbaycan xalqının milli iradəsinin təzahürü olduğunu qeyd edib. Vurğulayıb ki, bu qanlı və şanlı tarix müstəqilliyimizin mənəvi əsaslarının formalaşmasında, gənclərin milli-mənəvi tərbiyəsində mühüm rol oynayıb.

Çıxışların ardınca 20 Yanvara həsr olunmuş videoçarx nümayiş etdirilib. Təqdim olunan videoçarx NDU tabeliyində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbinin şagirdlərinin iştirakı ilə hazırlanıb.

Sonda NDU Tələbə Teatr Studiyasının “Belkanto” vokal qrupu ilə birgə hazırladığı “Qan yaddaşı və haqqın zəfəri” adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

****

Naxçıvan Dövlət Universitetinin kollektivi Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını ziyarət edib. Ziyarət zamanı Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi dərin ehtiramla anılıb, məzarları önünə gül dəstələri düzülüb.

20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsində mühüm mərhələ olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Bakıda törətdiyi qanlı qırğın nəticəsində yüzlərlə günahsız insan şəhid olub, minlərlə vətəndaşımız yaralanıb və itkin düşüb. Bu qanlı hadisə xalqımızın iradəsini, milli birliyini və müstəqillik əzmini daha da gücləndirib.

Ziyarət 20 Yanvar şəhidlərinin xatirəsinə hörmət və ehtiram ifadəsi kimi qiymətləndirilib.





# Naxçıvan Dövlət Universitetində yaz semestrinin ilk dərslərini şəhid ailələri və qazilər keçib



Naxçıvan Dövlət Universitetində 2026-cı il yaz semestrinin ilk dərsində tələbələr şəhid ailələrini və qaziləri dinləyiblər. Artıq 4 ildir ki, universitetdə hər semestrin ilk dərslərinin şəhid ailələri və qazilər tərəfindən keçirilməsi ənənəyə çevrilib. Bu təşəbbüsün əsas məqsədi vətənimizin bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək, sağlamlığını itirən qazilərimizin fədakarlığını gənc nəslə çatdırmaq və tələbələri vətənpərvərlik ruhunda tərbiyə etməkdir.

Universitetin bütün fakültələrində keçirilən dərslərdə ailə üzvləri şəhidlərin həyatı, şərəfli döyüş yolu və qəhrəmanlıqlarından danışıblar. Qazilər möhtəşəm Zəfər tariximizin canlı şahidi kimi Qarabağ müharibəsinin unudulmaz anlarından, döyüş meydanında göstərilən igidlik nümunələrindən və qazanılan qələbənin xalqımız üçün daşıdığı tarixi əhəmiyyətdən bəhs ediblər.

Bəzi auditoriyalarda şəhidlərimizin həyatlarını və qəhrəmanlıqlarını əks etdirən slaydlar nümayiş olunub. Tələbələrin sualları cavablandırılıb, səmimi fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində mütəmadi olaraq şəhid ailələri və qazilərlə görüşlər təşkil edilir, “Naxçıvan Şəhid Ailələri”, “Naxçıvan Qaziləri” İctimai birlikləri ilə birgə tədbirlər keçirilir. Bu cür görüşlər tələbələrin vətəndaşlıq mövqeyinin formalaşmasına, milli kimlik şüurunun möhkəmlənməsinə və tarixi yaddaşın qorunmasına mühüm töhfə verir.









# NDU-da 2025-ci il üzrə elmi fəaliyyətin nəticələri müzakirə edilib

Naxçıvan Dövlət Universitetində 2025-ci ilin yekunlarına dair elmi hesabat tədbiri keçirilib.

Tədbirdə NDU-nun rektoru Elbrus İsayev 2025-ci ilin elmi nəticələri və 2026-cı il üzrə qarşıya qoyulan hədəflərdən bəhs edib. Rektor bildirib ki, 2025-ci ildə Naxçıvan Dövlət Universitetində elm, tədqiqat və innovasiya sahəsində mühüm nailiyyətlər əldə edilib. Tələbələrin elmi fəaliyyət göstəriciləri artıb, beynəlxalq indeksli nüfuzlu jurnallarda nəşrlərin sayı əvvəlki illərlə müqayisədə xeyli yüksəlib, tələbə startap komandaları yerli və beynəlxalq müsabiqələrdə uğur qazanıb. Eyni zamanda universitetdə aparıcı beynəlxalq elmi elektron bazalara çıxış təmin edilib və bu, elmi infrastrukturun güclənməsinə xidmət edir.

Elm və innovasiyalar üzrə prorektor Elsevər Əsədov 2025-ci ilin yekunlarına dair məruzə ilə çıxış edərək il ərzində fakültələr tərəfindən icra edilmiş elmi-tədqiqat işləri, əldə olunan nəticələr, tətbiqi əhəmiyyətə malik yeniliklər və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verib. Bildirib ki, 2025-ci il universitetin elmi fəaliyyət tarixində mühüm mərhələ olub. İl ərzində universitet üzrə 3000-dən artıq nəşr olub ki, bunlardan 150-si monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və metodiki vəsaitdir.

Prorektor vurğulayıb ki, il ərzində 2000-dən çox elmi məqalə nəşr edilib, onlardan 1300-ü xarici elmi nəşrlərdə, 300-dən çoxu isə Web of Science və Scopus bazalarına daxil olan nüfuzlu beynəlxalq jurnallarda dərc olunub. Eyni zamanda 600-dən çox tezisin nəşr olunduğunu, onlardan 370-nin xaricdə çap edildiyini diqqətə çatdırıb.

Çıxışda qeyd olunub ki, bir akademik heyət üzvünə düşən orta nəşr sayı 5-dən çox olub və bütün bu göstəricilər əvvəlki illərlə müqayisədə xeyli yüksəlib. Xüsusilə 2025-ci ildə Scopus və Web of Science bazalarında dərc olunan nüfuzlu nəşrlərin sayı universitetin əvvəlki bütün dövrlər üzrə ümumi göstəricisinə bərabər olub. 2025-ci ildəki nəşrlərin 33-ü Q1, 51-i Q2, 70-i Q3, 26-sı Q4 jurnallarda , 5-i konfrans materialı və 2-si kitab bölməsində yer tutur. Bu fakt Naxçıvan Dövlət Universitetində elmi potensialın və tədqiqat keyfiyyətinin əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir.





Sonda qeyd olunub ki, həyata keçirilən tədbirlər universitetdə elmi və akademik fəaliyyətin stimullaşdırılmasına, tədqiqat mühitinin gücləndirilməsinə və əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Elmi nəticələrin keyfiyyətinin yüksəldilməsi məqsədilə verilən tövsiyələr, tətbiq olunan motivasiya mexanizmləri və əməkhaqqı artımları Naxçıvan Dövlət Universitetində dayanıqlı inkişafın və institusional güclənmənin təmin olunmasına yönəlib.

2025-ci ildə doktoranturaya qəbulun hesabatı, dissertasiya mövzularının müzakirəsi və təsdiqi, doktoranturada aparılan işlər, doktorantların attestasiyası, eləcə də magistr dissertasiyalarının yerinə yetirilməsi məsələləri müzakirə olunub.



Bu barədə universitetin Magistratura və doktorantura mərkəzinin dekanı Çapay Quliyev məlumat verib.

Tədbirdə Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə tələbələrin elmi fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, 2025-ci il ərzində 4132 tələbəni əhatə edən 66 elmi layihə icra olunub. İl ərzində tələbələr tərəfindən 159 elmi, 47 publisistik məqalə nəşr edilib. Qeyd olunub ki, dərc edilən elmi nəşrlərin təxminən üçdə biri yüksək impakt faktorlu jurnallarda çap olunub. Həmçinin bu göstəricilərə tələbələr tərəfindən hazırlanmış Scopus və Web of Science indeksli 3 elmi məqalə də daxildir.

Bununla yanaşı, 2025-2026-cı tədris ilində 647 müəllimin elmi rəhbərliyi ilə 1775 tələbə tərəfindən 1771 mövzu üzrə elmi-tədqiqat işlərinin aparılması nəzərdə tutulur.

Vurğulanıb ki, əldə olunan bütün bu göstəricilər son 9 ilin ən yüksək nəticələri olmaqla, universitetdə tələbələrin elmi fəaliyyətinin inkişaf səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldiyini göstərir.

Nəticələrə əsasən, universitetin bir qrup akademik heyət üzvü və tələbələri müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb.

Belə ki, Memarlıq və mühəndislik fakültəsi 2025-ci il üzrə "İlin fakültəsi" adına layiq görülüb. Eyni zamanda "İlin tədqiqatçısı", "İlin ən yaxşı tədqiqat qrupu rəhbəri", "İlin ən fəal doktorantı", "İlin ən fəal magistrantı" və "İlin tədqiqatçı tələbəsi" nominasiyaları üzrə fərqlənən şəxslər sertifikat və təşəkkürnamələrlə təltif olunublar.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Elbrus İsayev: İdman sahəsində sistemli inkişaf üçün yeni strategiyaya ehtiyac var

Naxçıvan Dövlət Universitetində 2026-2030-cu illər üzrə idman sahəsində görüləcək işlərin planlaşdırılması, prioritet istiqamətlərin müəyyənləşdirilməsi və qarşıda duran vəzifələrin müzakirəsi məqsədilə müşavirə keçirilib.



Universitetin rektoru Elbrus İsayev müşavirədə son beş ildə, xüsusilə 2025-ci il ərzində idman sahəsində qazanılmış uğurlardan bəhs edib, bu istiqamətdə həm yerli, həm də beynəlxalq yeni yol xəritəsinin hazırlanması ilə bağlı tapşırıqlar verib. Rektor bildirib ki, NDU-da idman sahəsinin sistemli inkişafı və rəqabətliliyi baxımından yeni İdman Strategiyasının hazırlanmasına ehtiyac var.

Sadalanan bu məsələlərin həyata keçirilməsi məqsədilə NDU-nun idman sahəsinə dair 2026-2030-cu illər, eyni zamanda bir illik strateji planı hazırlanıb. Elbrus İsayev qeyd edib ki, bu strateji plan NDU-da idmanın kütləviləşdirilməsi və peşəkar fəaliyyətin yaxşılaşdırılması baxımından çox əhəmiyyətlidir. Rektor NDU-da İdman Strategiyasının daha keyfiyyətli icrası məqsədilə idman ləvazimatlarının alınmasına və yenilənməsinə başlandığını qeyd edib, görüləcək işlərlə bağlı aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.





Daha sonra rektor aidiyyəti şəxslərin hesabat və təkliflərini dinləyib. Müşavirədə peşəkar idmançıların yetişdirilməsi mexanizmləri və yolları müzakirə edilib.

Tədbir çərçivəsində Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev universitetin idman uğurları ilə bağlı, İdman Klubunun rəhbəri, professor Məmmədəli Rəhimov isə klubun 2025-ci il üzrə fəaliyyətinə dair hesabatla çıxış ediblər. Klubun tərkibində 16 dərnəyin fəaliyyət göstərdiyi vurğulanıb və il ərzində görülən işlərdən, fərdi və komanda şəklində qazanılan uğurlardan bəhs edilib. Fakültənin müəllimləri üzv olduqları dərnəklərin əldə etdiyi nailiyyətlərlə bağlı hesabatla çıxış ediblər.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruqiyyə Kərimova xarici tələbələrin də idman sahəsinə maraq göstərdiyini və onların universitetin idman strategiyası çərçivəsində uğurlu nəticələr əldə edə biləcəklərini bildirib.

Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Nicat Yaqubov universitetin illik və beşillik strategiyasının ümumi müddəaları və əsas vəzifələri barədə məlumat verib. O, strateji planın icrasına nəzarət mexanizmlərinin əhəmiyyətini vurğulayıb. Tələbə İdman Şurasının fəaliyyətə başlamasını universitetin idman həyatında mühüm mərhələ kimi dəyərləndirən prorektor fakültələr üzrə üzvlərin seçiləcəyini də bildirib. Qeyd edib ki, universitetin İdman Strategiyası yalnız yarış və nəticəyönümlü fəaliyyət üçün deyil, eyni zamanda tələbələrin sosiallaşmasına, liderlik və komanda bacarıqlarının formalaşmasına xidmət edir.

Tədbir qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib, səsləndirilən təkliflər fakültənin gələcək fəaliyyət planlarında nəzərə alınması üçün qeydiyyata alınıb.

***Badəm Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Tələbələrin innovativ layihələri sertifikatla qiymətləndirilib






Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində keçirilən "Elektronika və proqramlaşdırma" sərgisinin iştirakçıları sertifikatla təltif olunublar. Tələbələr proqramlaşdırma və elektronika sahəsində innovativ düşüncə, yaradıcı texnoloji yanaşma və layihələrin təqdimatında fəal iştiraklarına görə mükafatlandırılıblar.

Universitetin rektoru Elbrus İsayev tələbələrlə görüşərək onları təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Rektor tələbələrlə səmimi söhbət apararaq onları daim öz üzərlərində işləməyə, yaradılan imkanlardan səmərəli istifadə etməyə çağırıb, eyni zamanda mübadilə proqramlarının əhəmiyyətindən bəhs edib. O, müasir dövrün tələbi olan İT bacarıqlarına yiyələnməyin vacibliyinə də toxunaraq tələbələrə müvafiq tövsiyələr verib.

Görüş zamanı tələbələr onlara göstərilən diqqət və qayğıya görə rektora minnətdarlıqlarını bildiriblər.

Sonda Elbrus İsayev tərəfindən tələbələrə sertifikat təqdim olunub və kitab hədiyyə edilib.

Qeyd edək ki, Memarlıq və mühəndislik fakültəsinin tələbələrinin təşəbbüsü və iştirakı ilə təşkil olunan "Elektronika və proqramlaşdırma" sərgisində ekologiya, meliorasiya, energetika və proqramlaşdırma sahələrini əhatə edən 35-dən artıq layihə nümayiş etdirilib.

# Xaricdə təhsil alacaq rezidentlərlə görüş keçirilib





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev xaricdə təhsil alacaq rezidentlərlə görüşüb. Görüş zamanı rektor rezidentləri təbrik edərək onlara qarşıdakı təhsil həyatlarında uğurlar arzulayıb.

Rektor universitetlər arasında imzalanmış ikili əməkdaşlıq müqavilələrinin əhəmiyyətindən danışaraq bu proqram çərçivəsində xaricə göndəriləcək rezidentlərə yaradılan imkanlardan səmərəli istifadə etməyi tövsiyə edib.

Tələbələrdən dördü Türkiyənin Qazi Universitetinə, biri isə Ondokuz Mayıs Universitetinə rotasiya olunub.

Tibb fakültəsinin III kurs üzrə "Patoloji anatomiya və məhkəmə-tibbi ekspertiza", "Nevrologiya", "Oftalmologiya" ixtisasları, IV kurs üzrə isə "Yoluxucu xəstəliklər" və "Kardiologiya" ixtisaslarında təhsil alan rezidentlər müvafiq olaraq üç, altı və doqquz ay müddətində xaricdə təhsil alacaqlar.

*Badəm Əliyeva*
*Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı*

# NDU-nun tədqiqat qrupu beynəlxalq müsabiqədə birinci yerə layiq görülüb

Naxçıvan Dövlət Universitetinin Təbii Ehtiyatlar İnstitutunun "Hidrogeologiya və mineral sular" laboratoriyasının tədqiqat qrupu Almaniyanın Düsseldorf şəhərində doktorant, magistrant və bakalavrlar arasında keçirilən "BIO PRODUCTS" beynəlxalq müsabiqəsində I yerə layiq görülüb.




Qrupun təqdim etdiyi 22 səhifəlik elmi layihə I dərəcəli diplom, qızıl medal və "Grand Prix" kuboku qazanıb.

Tədqiqat qrupuna "Hidrogeologiya və mineral sular" laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent, Rusiya Təbiətşünaslıq Akademiyasının professoru Fizzə Məmmədova rəhbərlik edir. Elmi işçi, doktorant, dissertant və bakalavrlardan ibarət olan qrup fərdi elmi nailiyyətləri və peşə bacarıqlarını vahid istiqamətdə birləşdirərək müstəqil fəaliyyət göstərir.

Tədqiqat qrupunun uğurları elmi mühitin gücləndirilməsi, tələbələrin tədqiqat bacarıqlarının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

# "Naxçıvan Dövlət Universiteti artıq regional sərhədləri çoxdan aşıb"

Naxçıvan Dövlət Universitetində keçirilən görüş çərçivəsində Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru universitetdə yaradılmış təhsil və tədqiqat mühiti, imzalanan memorandum və "Məktəbdən elmə" təşəbbüsü barədə fikirlərini bölüşüb.




Naxçıvan Dövlət Universitetində yaradılmış təhsil və tədqiqat mühiti ilə qürur duyuram. Həqiqətən də bu gün Naxçıvan Dövlət Universiteti ölkənin öndə gedən ali təhsil müəssisələrindən biridir. Çıxışımda da qeyd etdim ki, universitet regionda yerləşsə də, burada görülən işlərin keyfiyyəti baxımından artıq çoxdan regional sərhədləri aşmışdır.

Universitetin bir sıra fakültələrində olduq, yaradılmış laboratoriyalarla tanış olduq və tam məsuliyyətlə, səmimiyyətlə demək istəyirəm ki, burada formalaşdırılan təhsil mühiti keyfiyyətli təhsil üçün tam adekvatdır.

Bu gün həmçinin Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti arasında əməkdaşlığa dair memorandum imzaladıq. Əsas məqsədimiz güclərimizi birləşdirmək və Azərbaycan təhsilinin daha da inkişafı naminə səylərimizi davam etdirməkdir.

Bildiyiniz kimi, üç il əvvəl Azərbaycan Dövlət İqtisad Universitetində "Elmin populyarlaşdırılması – məktəbdən elmə" təşəbbüsü irəli sürmüşük. Bu tədbirin növbəti mərhələsini Naxçıvan Dövlət Universitetində keçirdik.

Bu gün alimlər və tədqiqatçılarla görüş keçirdik. Universitetdən sonra universitet nəzdində fəaliyyət göstərən gimnaziya şagirdləri ilə görüş planlaşdırılıb. Onlara elmin gözəlliyi barədə danışacağıq. Sabah isə Ordubad rayonunda məktəblilərlə görüş keçiriləcək. Alimlər elmin nə qədər maraqlı, şirin və cəlbedici olduğunu öz mülahizələri ilə şagirdlərlə bölüşəcəklər.

Naxçıvan Dövlət Universitetinə uğurlar arzulayıram və inanıram ki, universitet artıq böyük zirvənin çox yaxınlığındadır və əminəm ki, elm, təhsil sahəsində zirvəni ən qısa zamanda fəth edəcəkdir.

*Professor Ədalət Muradov*
*UNEC-in rektoru*

# Naxçıvan Dövlət Universitetində Xalq artisti, dirijor Ağaverdi Paşayevin 75 illik yubileyi qeyd olunub

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Əməkdar incəsənət xadimi, Xalq artisti, professor, "Şöhrət" ordenli dirijor Ağaverdi Paşayevin 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev yubilyarı əlamətdar gün münasibətilə təbrik edib, onun Azərbaycan musiqi mədəniyyətində əvəzsiz yeri olduğunu vurğulayıb. Qeyd edib ki, Ağaverdi Paşayevin yaradıcılığı milli musiqi irsinin çağdaş dövrdə yaşadılmasına, təhsil və mədəniyyət arasında möhkəm körpünün qurulmasına mühüm töhfə verib. Xalq artistinin fəaliyyəti yalnız sənət uğurları ilə məhdudlaşmır, eyni zamanda gənc nəslin estetik zövqünün formalaşmasına, milli-mənəvi dəyərlərə bağlı kadrların yetişdirilməsinə xidmət edir. Elbrus İsayev Ağaverdi Paşayevin nümunəvi həyat yolunun və zəngin təcrübəsinin gənclər üçün əsl örnək olduğunu diqqətə çatdırıb.

Rektor yubilyara Naxçıvan Dövlət Universitetinin Fəxri Fərmanını və universitet kollektivi adından müxtəlif hədiyyələr təqdim edib.










Sənətşünaslıq elmləri doktoru, dosent, Əməkdar müəllim İnarə Məhərrəmova Xalq artistinin həyat və yaradıcılığına həsr etdiyi məruzəsində onun "Şöhrət" ordeni ilə yanaşı, "Qızıl Cəng" Beynəlxalq mükafatı və "Humay" mükafatı laureatı olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olan sənətkar 50 ildən artıqdır musiqi sənətinə xidmət edir.

Prezidentin fərdi təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, NDU-nun İncəsənət fakültəsinin "Xalq Çalğı Alətləri" kafedrasının müəllimi Əkrəm Məmmədli səmimi çıxışında yubilyarla bağlı xoş xatirələrini bölüşüb. Bildirib ki, Ağaverdi Paşayev dirijor və sənətkar kimi çoxsaylı uğurlara imza atıb, sənətdə öz sözünü deyib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin nəzdində Musiqi Kollecinin Xalq Çalğı Alətləri orkestri dirijor Niyaz İsmayılovun rəhbərliyi ilə Xəlil Cəfərovun "Rəqs süitası"nın I, II, III və IV hissələrini ifa edib.

Sonda yubilyar diqqət və qayğıya görə rektora və universitet kollektivinə dərin təşəkkürünü bildirib.

# NDU-da Azərbaycan Gəncləri Günü qeyd olunub

Naxçıvan Dövlət Universitetində 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Texnoloji transfer və innovasiyalar sektorunun, İdman klubunun, Memarlıq və mühəndislik fakültəsinin müəllim və tələbələrinin əl işlərindən, nailiyyətlərini əks etdirən diplom və kuboklarından ibarət sərgiyə baxış keçirilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ali təhsil ocağının rektoru Elbrus İsayev çıxış edərək Azərbaycan Gəncləri Gününün təsis edilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Ölkədə gənclər siyasətinin bir mərkəzdən idarə olunması məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılmasını xüsusi vurğulayan rektor qeyd edib ki, bu gün Azərbaycan gəncləri dövlətin əsas dayağı və aparıcı qüvvəsidir. Elbrus İsayev ölkədə həyata keçirilən uğurlu gənclər siyasətindən bəhs edib: "Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bizim Zəfərimiz, torpaq uğrunda canından keçən və keçməyə hazır olan gənclər bu siyasətin uğurunu bir daha təsdiqlədi".

NDU gənclərinin uğurlarından bəhs edən rektor onların elmi fəaliyyətlərinə xüsusi diqqət çəkib: "2025-ci il ərzində NDU-nun bakalavriat pilləsində təhsil alan tələbələr tərəfindən yazılmış 150-dən çox elmi məqalə yerli və xarici jurnallarda, konfrans materiallarında dərc edilib".

Elbrus İsayev gəncləri təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

NDU-nun Biotexnologiya laboratoriyasının müdiri Əli Quliyev çıxışında dövlətin apardığı gənclər siyasətinin rolundan, eləcə də NDU-da gənclərə göstərilən diqqət və qayğıdan bəhs edib: "NDU-da gənclərə göstərilən dəstək, maddi-texniki bazanın gücləndirilməsi burada gənclərin potensialının üzə çıxarılmasına xidmət edir".

NDU-nun "Kompüter mühəndisliyi (tədrisi ingilis dilində)" ixtisası üzrə I kurs tələbəsi, Prezident təqaüdçüsü Cəmilə Babayeva gəncliyin ən yaxşı özünüinkişaf mərhələsi olduğunu vurğulayıb. Diqqət və qayğıya görə dövlətə və universitet rəhbərliyinə minnətdarlığını bildirib.







## *Gənclərin elmi və ictimai uğurları diqqət mərkəzində*

Tədbirin mükafatlandırma mərasimində universitetin könüllülük, mədəniyyət, idman, innovasiya sahələrində fəallığına görə seçilən tələbələrə, həmçinin tələbə təşkilatlarının bir sıra fəal üzvlərinə təşəkkürnamələr təqdim edilib.

Tədbirin bədii hissəsində İncəsənət fakültəsinin "Turan" qrupunun, "Belkanto" vokal qrupunun və əcnəbi tələbələrdən ibarət "Bəri bax" vokal qrupunun ifalarında müxtəlif musiqi nömrələri səsləndirilib.

Sonda Azərbaycan Gəncləri Gününə həsr olunmuş videoçarx izlənilib, xatirə fotosu çəkdirilib.

*Gülay Tahirli*

# KİTAB TƏQDİMATLARI

## NDU alimindən Türkiyədə ingilisdilli elmi nəşr




NDU-nun Elmi Kitabxanasında "Elektroenergetika mühəndisliyi" kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Validə Hacıyevanın Türkiyədə ingilis dilində nəşr olunmuş "Yarımkeçiricilərin elektron nəzəriyyəsinin əsasları" ("Fundamentals of the electron theory of semiconductors") adlı kitabının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov kitabın elmi tədqiqatlar və ali təhsil müəssisələrində tədris prosesi üçün əhəmiyyətindən bəhs edib. O, nəşrin müasir elmin tələblərinə cavab verdiyini və mühəndislik ixtisasları üzrə mütəxəssislərin hazırlanmasında faydalı mənbə olacağını bildirib.

Təqdimatda Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov, "Elektroenergetika mühəndisliyi" kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Məftun Əliyev, kafedranın baş müəllimi Sevinc Rzayeva və digər çıxışçılar "Yarımkeçiricilərin elektron nəzəriyyəsinin əsasları" kitabının yarımkeçiricilər fizikasının fundamental məsələlərinə həsr olunmuş elmi-nəzəri əsər olduğunu bildiriblər. Qeyd olunub ki, nəşrdə yarımkeçirici maddələrin elektrik keçiriciliyinin fiziki mahiyyəti, elektron proseslərin mexanizmi və kristal quruluşun rolu ardıcıl və sistemli şəkildə izah olunub.

Sonda çıxış edən müəllif Validə Hacıyeva elmi fəaliyyət üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.






***

## "Necə biznesmen olmalı: uğura gedən yol" adlı dərs vəsaitinin təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "İqtisadiyyat və marketinq" kafedrasının dosenti Turqan Babayevin "Necə biznesmen olmalı: uğura gedən yol" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov bildirib ki, universitetdə müasir dövrün tələblərinə uyğun elmi nəşrlərin hazırlanmasına xüsusi önəm verilir. Ali təhsil ocağında kitab və dərs vəsaitlərinin təqdimatının keçirilməsi artıq davamlı xarakter alıb. Prorektor qeyd edib ki, iqtisadiyyat sahəsində praktik biliklərə əsaslanan vəsaitlər tələbələrin real biznes mühitinə hazırlanmasında mühüm rol oynayır. Nicat Yaqubov təqdim olunan dərs vəsaitində biznesin qurulması və idarə olunmasının incə mexanizmlərinin sistemli şəkildə izah edildiyini və bunun oxucu üçün praktik dəyər daşıdığını vurğulayıb və müəllifi təbrik edib.






İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov çıxışında müəllifin elmi yanaşmasına diqqət çəkib. Bildirib ki, dərs vəsaitində biznes fəaliyyətinin nəzəri əsasları ilə yanaşı, metodiki və praktik məsələlər də geniş şəkildə əhatə olunub. Biznesin təşkili, formalaşması və idarə edilməsi prosesləri ardıcıllıqla təqdim edilir, onun bazar, istehsal, maliyyə, intellektual və hüquqi tərəfləri elmi əsaslarla izah olunur.

"Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri Cavadxan Qasımov və "İqtisadiyyat və marketinq" kafedrasının dosenti Hüseyn Bağırsoylu dərs vəsaitinin məzmun baxımından aktuallığını vurğulayıblar. Qeyd olunub ki, yeddi fəsildən ibarət kitab biznes dünyasına girişdən başlayaraq, biznesə hazırlıq, onun qurulması və idarə olunmasına qədər əsas mərhələləri əhatə edir. Vəsaitin gələcək mütəxəssislərdə analitik təhlil, kreativ düşünmə və effektiv idarəetmə bacarıqlarının formalaşmasına xidmət etdiyi bildirilib.

Sonda müəllif Turqan Babayev universitetdə yaradılan elmi mühitin alimlərin potensialının üzə çıxarılmasına və praktik yönümlü dərs vəsaitlərinin hazırlanmasına geniş imkanlar yaratdığını bildirib. Tədbirdə iştirak edən hər kəsə təşəkkürünü ifadə edib.



***

## *"Qanlı 20 Yanvar" adlı kitab sərgisi*

NDU Elmi Kitabxanasında 20 Yanvar faciəsinə həsr olunmuş "Qanlı 20 Yanvar" adlı kitab sərgisi təşkil olunub. Sərgi Azərbaycan xalqının azadlıq mübarizəsində şərəfli, eyni zamanda hüznlü tarixə malik olan 20 Yanvar hadisələrinin xatirəsini yad etmək məqsədi daşıyır. Sərgidə nümayiş etdirilən kitablar, qəzetlər və fotoşəkillərdə 20 Yanvar faciəsinin ağrılı-acılı xatirələri, xalqımızın azadlıq uğrunda apardığı mübarizə ruhu öz əksini tapıb.










# İnsanlıq nümunəsi olan alim ömrü

İnsan ömrü axar suya bənzəyir. Bəzən ömür adlı yolun nə vaxtsa başa çatacağını hiss etmirsən. Bu da həqiqətdir ki, insanın cismani ölümündən sonra onun ikinci həyatı başlayır. Bu həyat elin yaddaşına hopan ömrün izləridir. Ən uzun insan ömrüsə özündən sonra silinməz izlər qoyub, xatirələrdə yaşayanlara məxsusdur. Əgər dünyasını dəyişəndən sonra sağlığında təmasda olduğun insanların xatirəsində qalırsansa, tez-tez anılırsansa, demək, yaddan çıxmamısan, yaşayırsan. Çünki insanın həyatda qazandığı əsl zənginlik özü haqqında yaddaşlarda oyatdığı xoş təəssüratlar, xatirələrdir. Onun cismani yoxluğundan sonra belə xatirələri canlandırmaq, mənalandırmaqsa, həm onun ruhuna ehtiram, həm də o insanın ölümsüzlüyü deməkdir.

Sağlığında böyük hörmət sahibi olan, haqq dünyasına qovuşduqdan sonra çoxlarının xatirəsində xeyirxah insan, sədaqətli dost, vətənpərvər alim, unudulmaz müəllim və qayğıkeş ailə başçısı kimi qalan insanlardan biri də pedaqoji elmlər doktoru, professor Elbəyi Maqsudovdur.

Elbəyi Sadıq oğlu Maqsudov 16 fevral 1955-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Gərməçataq kəndində anadan olmuşdur. 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat ixtisasına daxil olmuşdur.

25 il orta ümumtəhsil məktəblərində – Gərməçataq kənd orta məktəbində, Naxçıvan şəhərindəki "Xanım qızlar", "Türk oğlanlar" liseylərində və 3 saylı rus məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir.

1986-cı ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasına qəbul olmuş, 1992-ci ildə "Azərbaycan dili dərslərində fənlərarası əlaqədən (rus dili fənni ilə) istifadənin imkanları və səmərəli yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi, 2000-ci ildə dosent, 2008-ci ildə isə "Azərbaycan və türk dilinin müqayisəli tədrisinin tələbələrin linqvistik təfəkkürünün inkişaf etdirilməsinə təsiri" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər doktoru alimlik dərəcəsi, 2014-cü ildə isə professor elmi adı verilmişdir.

"Ana dili dərslərində dillərarası əlaqədən istifadənin ümumi məsələləri", "XXI əsrin öyrənciləri üçün Azərbaycan dili və ədəbiyyatdan testlər", "Azərbaycanca-türkcə , türkcəazərbaycanca qarşılıqlı dilçilik terminləri lüğəti", "Dillərarası əlaqə təliminin metodikası", "Dillərin müqayisəli tədrisi: imkanlar və vasitələr", "Ürək bir dünyadır", "Sözlər də insan kimidir", "Azərbaycan dilinin Türkiyə türkcəsi ilə əlaqəli tədrisi üçün çalışmalar", "Təmsillər", "Poetik türkəçarələr" və s. elmi-metodiki, bədii əsərlərin müəllifidir.

1994-2004-cü illərdə NDU Elmi Şurasının katibi, 2004-2018-ci illərdə Naxçıvan Dövlət Universitetinin "Fənlərin tədrisi metodikası" kafedrasının müdiri vəzifəsində işləmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl Təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur. 2015-ci ildə "Poetik-praktik Azərbaycan dili" əsərinə görə Naxçıvan Muxtar Respublikası Mükafatına layiq görülmüşdür. 2017-ci ildə Azərbaycanın Əməkdar müəllim fəxri adı verilmişdir

2018-ci il may ayının 28-də vəfat etmişdir.

Elbəyi Maqsudov 63 il ömür sürsə də, həmişə insanlığın zinəti sayılan saf və münis dəyərləri xarakterində yaşadıb, şəxsiyyətini, mənliyini, ad-sanını, həyat prinsiplərini daim qoruyub saxlamışdır. Artıq doqquz ildir ki, Elbəyi müəllim aramızda yoxdur. Amansız ölüm onu sıralarımızdan qoparmışdır. Lakin buna baxmayaraq, onun adı iş yoldaşlarının, həmkarlarının, dostlarının, tələbələrinin, qohum-əqrabasının, hətta onu şəxsən tanımayan çoxsaylı oxucularının dilindən düşmür. Hamı kimi mən də onu hər zaman minnətdarlıqla xatırlayıram. Elbəyi müəllim mənə nə orta məktəbdə, nə də ali məktəbdə dərs deməyib. Aspiranturada elmi rəhbərim də olmayıb. Ancaq onu həmişə həyatda və elmdə müəllimim saymışam. Müəllim təkcə o deyil ki, sənə dərs desin. İnsanın bütün ömrü boyu müəllimə – özünün zəngin həyat təcrübəsi və müdrikliyi ilə həyatın çətinliklərinə sinə gərməyi, sədaqətli, etibarlı və dözümlü olmağı, vətəni sevməyi öyrədən müəllimə ehtiyacı olur. Bu mənada, Elbəyi müəllim də mənim həyatda qarşılaşdığım əsl müəllimlərdəndir. O, müəllim olmaqla yanaşı, həm də çox səmimi insan, sədaqətli dost, yaxşı iş yoldaşı, bir sözlə, yaradıcılığı ilə şəxsi keyfiyyətləri bir-birini tamamlayan bütöv şəxsiyyət idi. Və mən fəxr edirəm ki, belə bir böyük şəxsiyyətin uzun müddət həm ailəvi yaxın dostu, həm də ən fəal oxucusu olmuşam. Bir də onunla qürur duyuram ki, Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universiteti Elmi Kitabxanalarında (2008-2020) direktor işləyərkən bir necə kitabının təqdimatının təşkilatçısı olmuşam.

Hər kəs insan itkisinin nə qədər ağır olduğunu bilir. Xüsusən də uzun illərin müəlliminin, dostunun itkisi. Müəllimi haqqında vida sözü yazmaq isə daha ağrılı-acılı olur. Ancaq nə edəsən ki, "gəlimli-gedimli, son ucu ölümlü dünyanın" sərt və dəyişməz qanunu var. Yaranan bir gün köç edir. Bizim borcumuzsa insanlıq nümunəsi olan bu cür şəxsiyyətləri gələcək nəsillərə tanıtmaqdır.

Etiraf edim ki, onun ölümündən sonar tərtib etdiyim "Professor Elbəyi Maqsudov xatirələrdə" kitabı üzərində işlədiyim müddətdə Elbəyi müəllimin keçdiyi həyat yolunu vərəqlədikcə, onun haqqında yazılan yazıları oxuduqca həm kövrəldim, həm də onu yenidən tanıdım, yenidən kəşf etdim və qürur duydum. İndi dönüb o illəri xəyalımdan keçirəndə deyirəm, nə yaxşı ki, belə bir insanı tanımışam. Çünki professor Elbəyi Maqsudov kimi örnək ziyalılarımız hər birimizin qürur yerimizdir.

Son dərəcə səmimi, ürəyiaçıq, təvazökar, vətənini və el-obasını sevən, onunla fəxr edən bir insan olan Elbəyi Maqsudov ömrünün gözəl çağında sevənlərini tərk etdi... Yaddaşlarda isə sadəcə onun duzlu-məzəli zarafatları və bir də dostlarının, iş yoldaşlarının, tələbələrinin, ailə üzvülərinin onun haqqında söylədikləri xatirələr qaldı... Xatirələr isə itirdiklərimiz haqqında dediyimiz son sözlər, təsəlli tapdığımız son ümidlərdir... Düşünəndə ki, yaşadığımız o anları bir daha geri qaytara bilməyəcəyik, o zaman xatirələr bizim üçün çox əziz və şirin olur.

Bu da həqiqətdir ki, hər bir şəxsiyyət üzləşdiyi mühitdən də əvvəl məhz ailə ocağında yetişir, formalaşır, gələcək həyat yolunu müəyyənləşdirməyə çalışır. İnsan xarakterinin formalaşmasında onun doğulub boya-başa çatdığı, suyunu-çörəyini daddığı, havasını udduğu ana təbiətin də rolu az deyil. Müdriklərimiz əbəs yerə "ot kökü üstə bitər" deməyiblər. Hələ yetkinlik yaşından Elbəyi Maqsudov boya-başa çatdığı halal ailə, əhatə olunduğu saf mühit onu məhz kişi kimi yaşamağa, ömrü ləyaqətlə başa vurmağa, daim haqqa, ədalətə tapınmağa, mübariz olmağa məhkum edib. Qədim yurd yerimiz olan Naxçıvan şəhərinin Gərməçataq kəndində anadan olan Elbəyi Maqsudovun cəmiyyət üçün layiqli vətəndaş və şəxsiyyət kimi yetişməsində ilk növbədə valideynlərinin böyük rolu olub. Ailəsini dolandırmaq üçün hər bir əziyyətə qatlaşan Sadıq kişi el arasında mərdliyi, sözünə bütövlüyü, yüksək insani keyfiyyətləri ilə tanınıb. Anası Gülü xanım isə Azərbaycan qadınına xas isməti, namusu, ailəcanlılığı ilə sayılıb seçilib, hörmət izzət sahibi olub.

Elbəyi müəllim Tanrının ona bəxş etdiyi ömür payını ləyaqətlə yaşayaraq kifayət qədər ali titullara sahib olub: pedaqoji elmlər doktoru, professor, metodist, dilçi-alim, şair, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikası mükafatı və s. Lakin onun ən böyük sərvəti, ən böyük mükafatı yüksək mənəviyyat sahibi olmasıdır. Çox təəssüf ki, bu hər kəsə nəsib olmayan xarakterdir. Ondan öyrəniləsi, nümunə götürüləsi çox şey vardı.

Elbəyi Maqsudov mənim düşüncələrimdə, hafizəmdə daha çox müəllim kimi qalıb. O təkcə auditoriyaya girib dərs aparması ilə deyil, bütün varlığı ilə müəllim idi. Onun bir fikri heç vaxt yadımdan çıxmır: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün müəllimlər hərtərəfli biliyə, ən əsası milli keyfiyyətlərə malik olmalıdır". Bütün bu müsbət keyfiyyətlər onun xarakterində cəmləşmişdi. İstər elmi, istərsə də bədii əsərlərində belə müəllim nəfəsi, müəllim kəlamı, müəllim təlimi vardı. Onun həyat yolu və yaradıcılığı böyük bir məktəbdir.

Elbəyi Maqsudov həm də xeyirxah alim idi. Məndən soruşsalar ki, alimlərdə ən çox hansı keyfiyyətə üstünlük verərdin, fikirləşmədən xeyirxahlıq sözünü dilimə gətirərdim. Təbii ki, alim üçün istedad, zəhmət, dözüm, gərgin axtarışlar da vacibdir. Uzun illər tanıdığım və hörmət bəslədiyim, zəhmətkeş alim kimi həmişə haqqında xoş sözlər eşitdiyim Elbəyi müəllimdə də bu xüsusiyyətlər vardı, lakin mənə görə, onun ən yaxşı keyfiyyəti məhz təmənnasız xeyirxahlığıydı. İşlədiyim yerlərdə, yaşadığım həyatda gördüyüm ən nəfsi tox, ən xeyirxah insanlardan biriydi Elbəyi müəllim. Bəlkə də, onun bu qədər sevilməyinin əsl səbəbi də məhz bu xarakterdə olması idi.

O bütün varlığı ilə ömrünün illərini verdiyi və qəlbən sevdiyi işlə – elmi yaradıcılıqla məşğul olubdu. Kitablar yazıb, redaktə edib, yeni elmi kadrlar yetişdirib. Onun əsas kredosu bu işləri vicdanla, yüksək professionallıq və vətəndaş məsuliyyəti ilə yerinə yetirmək idi. Görülən işlərin müqabilində mütləq nə isə ummaq Elbəyi müəllimin əxlaqına, psixologiya və dünyagörüşünə yad idi. O, tam əsasla "mükafatını vicdanından alan" ziyalılar sırasına aid idi.

Çox vaxt ziyalılıq haqqında müəyyən söhbətlər gedir, müzakirə və diskussiyalar aparılır. Hansısa rus yazıçısı – səhv etmirəmsə, V.Kojevnikov yazıb: "Bizim zamanda bütün boş kürsüləri tutmaq uğrunda mübarizə gedir. Yalnız bircə kürsü səbirsizliklə öz sahibini gözləyir. Bu – ziyalılıq kürsüsüdür!". Elbəyi müəllim də bütün göstəriciləri ilə bu kürsüyə layiq bir ziyalı idi.

Elbəyi müəllim dilçi alim kimi ictimai həyatımızda və dilçilikdə baş verən bütün hadisələrə həssas münasibət bəsləyib. Onun tədqiqatlarında, günün aktual məsələləri barədə söhbətlərində zəmanənin nəbzini tutmaq bacarığı həmişə yüksək qiymətləndirilib. Ciddi problemlərə girişəndə də, aşıb-daşan mübahisələri sakitləşdirəndə də Elbəyi müəllim böyük səbr və təmkin nümayiş etdirib. Elbəyi müəllim 40 ilə yaxın yaradıcılığı dövründə sanballı elmi məqalələr, kitablar, monoqrafiyalar yazıb. Böyük alimin unikal elmi təfəkkürü dilçiliyin fakt və sənədlərinə quru keçmiş kimi yanaşmamış, onları daim müasir çağdaş, milli dilçilik problemləri ilə əlaqələndirmişdir. Ona görə də Elbəyi Maqsudovun tədqiqatlarında dilçiliyin ayrı-ayrı sahələri geniş milli-ictimai məzmun kəsb edir. Bundan əlavə, Azərbaycan xalqının mədəni-



mənəvi problemləri, bir millət və xalq olaraq milli dərdlərimiz bir vətəndaş, əsl ziyalı kimi həmişə Elbəyi Maqsudovun diqqət mərkəzində olmuşdur.

Onu da qeyd edim ki, Elbəyi müəllim haqqında xatirə yazmaq nə qədər çətindirsə, elmi yaradıcılığına nəzər salmaq bir o qədər şərəflidir. Elbəyi Maqsudovun Azərbaycan dilçilik elminin inkişafı üçün çəkdiyi zəhmət, onun yazdığı sanballı əsərlər, Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı maraqlı tədqiqatları, yetişdirdiyi yüksək ixtisaslı elmi-pedaqoji kadrlar xalqa təmənnasız xidmətin, yüksək mənada vətəndaşlığın, fədakar alim fəaliyyətinin parlaq nümunəsidir və o, Azərbaycan dilçilik elmi salnaməsində ən şərəfli yerlərdən birini tutur. Akademik İsa Həbibbəyli "Professor Elbəyi Maqsudov xatirələrdə" kitabına yazdığı ön sözdə bunu təsdiq edir. "Poetik-praktik Azərbaycan dili" kitabı Elbəyi müəllimin mükəmməl dilçi, təcrübəli pedaqoq və istedadlı şair olduğunu göstərir. Burada qrammatikanın bütün incəlikləri öz əksini tapıb. Müəllif qafiyəni də, formanı da, məzmunu da bir-birinə uyğunlaşdıra bilib. Burada xeyli miqdarda düşündürücü suallar, məntiqi tapşırıqlar, nəzəri materiallar olduqca maraqlı və yaradıcı şəkildə poetik əksini tapmışdır... Mən deyərdim ki, "Poetik-praktik Azərbaycan dili" kitabı Elbəyi Maqsudovun yaratdığı dil abidəsidir, ... ana dili çırağıdır".

Dərin təfəkkürə, elmi biliyə malik olan Elbəyi Maqsudov həm də həssas təbiətli, vətənini ürəkdən sevən, torpağına bağlı bir insan idi. O, doğulduğu, boya-başa çatdığı torpağın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaratdığı əsərlərində sönməz sevgi ilə, yanarlıqla tərənnüm və təbliğ edirdi. Yeni ruhla və həvəslə bədii yaradıcılığını, elmi araşdırmalarını davam etdirirdi.

Elbəyi Maqsudov elmi-pedaqji fəaliyyətində filologiya və pedaqogika elmlərinə aid olan problemlərə daha çox diqqət yetirmiş, onların həlli istiqamətində bir neçə dəyərli əsərlər yazmışdır. Bir mütəxəssis alim kimi o, Azərbaycan dilinin tədrisi metodikası üzrə ardıcıl və sistemli araşdırmalar aparmışdır. Həmin tədqiqatlar bilavasitə Azərbaycan dilinin tədrisi metodikası elmini zənginləşdirməyə yönəlmiş, həm nəzəri, həm praktik əhəmiyyət daşımışdır. Onun yaradıcılığını ümumi şəkildə nəzərdən keçirsək, görərik ki, bu yaradıcılıq iki istiqamətdə – bədii və elmi istiqamətdə inkişaf etmişdir.

Elbəyi müəllimin 2001-ci ildə "Ürək bir dünyadır" adlı ilk şeirlər kitabı işıq üzü görüb. Bu şeir kitabında da o həm şair, həm də dilçi-alim kimi özünü təsdiq edir, hətta əksər şeirlərində elmilik bədiiliyə üstün gəlir.

Bu cür şeirlər yazmaqsa, şairdən istedadla bərabər, həm də xüsusi savad tələb edir. Bildiyimiz kimi, bu günə qədər ədəbiyyatımızda çoxlu sayda dodaqdəyməzlər yazılıb, ancaq dodaqdəydilərə çox az rast gəlmək olur.

*ardı 14-cü səhifədə*

Fikrimi dəqiqləşdirmək üçün Elbəyi müəllimin yaradıcılığında silsilə təşkil edən dodaqdəydilərdən birinə nəzər salaq:

Düşmən qəm ələyib könlüm bağına,
Çəkilməz dumanlar çöküb dağıma,
Boylanıb-boylanıb Qarabağıma,
Boynunu burmusan, mən öləm, öləm.

Gördüyümüz kimi, bu cür şeirlər yazmaq üçün dilimizin incəliklərini dərindən bilmək, fonetikasını, hansı səsləri tələffüz edərkən dodaqlar bir-birinə toxunursa, o səsləri seçib qruplaşdırmaq və nəzmə çəkmək lazımdır. Bütün bunlar Elbəyi müəllimin dilimizin incəliklərinə dərindən bələd olduğunu sübut edən faktlardandır.

Onun yaradıcılığının ana xəttini Vətən mövzusu təşkil edir. "Sevgim də, ruhum da ancaq Vətəndir", - deyirdi. Azərbaycanın müstəqil dövlət kimi dünya birliyində gündən-günə öz mövqeyini möhkəmləndirməsindən nə qədər ruhlanırdısa, torpaqlarımızın bir hissəsinin işğal altında olmasından da ürəyi ağrıyır, bu ağrıları poetik dillə ifadə edirdi. Son illərdə səhhətindəki problemlərdən əziyyət çəksə də, onu ağrıdan, bəlkə də, tək bu deyildi. Onu narahat edən ən böyük dərdlərdən biri də Qarabağın işğaldan azad olması idi. Təəssüf ki, o bu günü görə bilmədi.Və bu ağrılar onun ürəyində sözə çevrilib, misralara düzüldü:

Məni o torpaqlar yandırıb, yaxır,
Alışan qəlbimdə şimşəklər çaxır.
İçimdən şəhidlik qanları axır.
Sevgisiz bir ürək ruhsuz bədəndir,
Sevgim də, ruhum da ancaq Vətəndir.

Həm də şair üçün vətən təkcə doğulduğu yurd yeri deyil, bütün Azərbaycan, onun hər qarışı vətəndir. Buna görə də ağrılı-acılı dünyamızın qayğıları, "Vətənsiz yaman üşüyürəm" deyən tələbəsinin harayı, taleyinə didərginlik yazılmış insanların dərdləri onu daxilən narahat edirdi. Bu hisslərlə dolu olan şeirlərinin hər sətrindən bir haray baş qaldırır sanki. Bu haray oxucuya vətənin taleyinin öz taleyi olmasını xatırladır. Ata-babalarımızın ruhu uyuyan bu torpağı göz bəbəyi kimi qorumağa, lazım gələrsə, onun yolunda canından keçməyə səsləyir bizi.

Elbəyi müəllim Allahın ona verdiyi ömür payını əsl kişilərə layiq yaşadı, özündən sonra şərəfli bir ad qoyub getdi. Bu cür şərəfli ömür yaşayan insanları gələcək nəsillərə tanıtmaqsa bizim müqəddəs borcumuzdur. Elbəyi müəllim artıq Haqq dünyasındadır. Onun əsərləri – kitabları, elmi məqalələri isə bizə miras qalıb. Elbəyi Maqsudovun xoşbəxtliyi ondadır ki, zənginlərdən, milyonçulardan fərqli olaraq onun varidatı mübahisə və münaqişə mövzusu deyil, onun varidatı hamımızındır, bütün xalqındır. İllər, əsrlər keçəcək, amma gələcəyini elmə bağlayan hər bir azərbaycanlı kitabxana rəflərindən onun kitablarını götürərkən bu adı hörmətlə oxuyacaq: Elbəyi Maqsudov. Və əminəm ki, onun kitablarını əlinə alan hər kəsin dilində bu fikirlər səslənəcək: Allah sənə rəhmət eləsin, Elbəyi müəllim, xeyirxah insan, əsl ziyalı idi.

*Aypara Behbudova*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Soyqırımı ümumbəşəri cinayətdir

Genosid yaxud soyqırımı – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, bu Konvensiyada "soyqırımı" dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər başa düşülür: bu cür qrupun üzvlərinin öldürülməsi; bu cür qrupun üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli xətər yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması; bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi; uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi. Konvensiyanın preambulasında soyqırımı yalnız "beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət" hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırımı bəşəriyyətin amansız böyük itkisi" sayılır.

***Bəşəriyyət əleyhinə törədilmiş ən ağır cinayət***

Beynəlxalq hüquq normalarına görə, soyqırımı törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Beynəlxalq hüquq soyqırımı cinayətinin anlayışını müəyyən etməklə yanaşı, həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdirir. Belə ki, "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 5-ci maddəsinə əsasən iştirakçı dövlətlər soyqırımı cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görməlidirlər. Konvensiyanın 6-cı maddəsinə görə, həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmayıbsa, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir.

1944-cü ilə qədər "genosid" anlayışı işlədilməmişdi. Bu xüsusi termin hər hansı insan qrupuna qarşı onların məhv edilməsi məqsədilə törədilən cinayət əməllərini ifadə edir. İlk dəfə 1944-cü ildə yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin Avropa yəhudilərinin faşistlər tərəfindən kütləvi məhv edilməsi siyasətini ifadə edən yeni termin işlətdi. O, yunan dilində genos – "nəsil, kök, soy" sözü ilə latın dilindən caedo – "öldürürəm" sözlərinin birləşməsindən "genosid" (soyqırımı) terminini təklif etdi. Bu termini Lemkin belə əsaslandırırdı ki, soyqırımı, müəyyən insan qruplarının mövcudluğunun vacib əsaslarını məhv etməyə yönəlmiş, müxtəlif cinayətkar hərəkətlərin koordinasiya olunmuş, planlı şəkildə həyata keçirilməsidir. Bir ildən sonra Nürnberq beynəlxalq hərbi tribunalı faşist liderlərini "bəşəriyyət əleyhinə cinayətlərdə" ittiham etdi.

Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XIX əsrin əvvəllərindən başlayır. Ermənilərin fasilələrlə, lakin düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız soydaşımız vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuş, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər.

***1905-1907-ci illər kütləvi qırğını***

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib.

1917-ci il oktyabr çevrilişindən sonra ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başlamışdılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan "Əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında maskalanaraq daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdır.

***1918-ci ilin mart hadisələri***

1918-ci ilin 30 mart – 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən, on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər tədqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır.



Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

***Əsrin faciəsi və insanlığın faciəsi – Xocalı soyqırımı***

*Tarixinin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 34 il bundan əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş Sovet ordusunun köməyi ilə Azərbaycanın Xocalı şəhərini işğal edərək yer üzündən silən ermənilər şəhərin sakinlərinə qarşı qətliam həyata keçirdilər. XX əsrdə azərbaycanlılara qarşı soyqırımı törədən ermənilər 613 nəfəri, o cümlədən 106 qadını və 63 uşağı xüsusi qəddarlıqla qətlə yetirdilər. 1275 nəfər əsir aparıldı, 150 nəfər itkin düşdü.*

1992-ci il fevralın 25-də saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə keçirilən silahlı qüvvələr, habelə Dağlıq Qarabağda təşkil olunan qanunsuz silahlı dəstələr keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçdilər. Azərbaycanın 7 mindən çox əhalisi olan qədim Xocalı şəhərində ermənilər xüsusi amansızlıqla və düşünülmüş şəkildə qırğın törətdi.

Xocalı soyqırımı və işğalçı Ermənistanın torpaqlarımızda törətdiyi digər faciələr nəticəsində İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında və digər beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar, o cümlədən insanların yaşamaq hüququ kobud şəkildə, kütləvi surətdə pozulmuşdur. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerləyeksan edilməsi ilə qurtardı. Xocalı soyqırımı xarakter etibarı ilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibləri İkinci Dünya müharibəsindən sonra yaradılmış beynəlxalq hərbi tribunalların (Nürnberq, Tokio) nizamnaməsində istifadə olunmuş, sonradan həmin cinayət tərkibləri keçmiş Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapmışdır. Xocalı sakinlərinin kütləvi şəkildə qətlə yetirilməsi ermənilərin azərbaycanlılara qarşı soyqırımı niyyətini sübuta yetirir. Xocalıda baş verən hadisələri bütün dünya ictimaiyyəti ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı kimi tanımalıdır. Çünki soyqırımının beynəlxalq hüquqda tövsifi Xocalı faciəsində tam əks olunur.

Ağdaban soyqırımı erməni silahlı birləşmələri tərəfindən törədilmiş qətliamın ən qanlı səhifələrindən biridir. Ağdaban kəndi Kəlbəcər rayonunda rayon mərkəzindən 36 kilometr şimal-şərqdə yerləşir. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum edib dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Ağdaban faciəsi törədilmə spesifikasına və xarakterinə görə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" Konvensiyanın müddəalarına tam uyğundur. Ona görə də bu faciə beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi qiymətləndirilməli və Ağdaban kəndinin dinc əhalisinə qarşı törədilən bu qırğın soyqırımı cinayəti kimi dünya ictimaiyyəti tərəfindən tanınmalıdır.

*ardı 15-ci səhifədə*

***Növbəti qanlı faciə – Qaradağlı soyqırımı***

Qaradağlı soyqırımı erməni silahlı birləşmələri tərəfindən 1992-ci il fevralın 17-də törədildi. Qaradağlı kəndi Xocavənd rayonunun, eləcə də Dağlıq Qarabağın ən qədim yaşayış məntəqələrindən biri olaraq rayon mərkəzindən 13 kilometr qərbdə, Xocavənd-Xankəndi avtomobil yolunun üzərində, dağətəyi ərazidə yerləşir. Tariboyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti – Qaradağlı soyqırımını həyata keçirdilər. Qaradağlı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.

***Xalqımıza qarşı törədilən soyqırımına Ümummilli Liderin təşəbbüsü ilə hüquqi qiymət verildi***

Xalqımıza qarşı 1905-ci ildən üzü bəri törədilən sistematik soyqırımlara yalnız 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilmişdir. Bu fərman XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı barədə müasir və gələcək nəsillərdə möhkəm milli yaddaşın formalaşdırılması, dünyada bu hadisələrə düzgün siyasi və hüquqi qiymət verilməsi, belə halların qarşısının alınması və bir daha təkrarlanmaması üçün proqram mahiyyətli sənəd oldu.

1998-ci ildə Azərbaycanın Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, MDB ölkələrinə və digər beynəlxalq təşkilatlara, ölkələrin parlament və hökumətlərinə müraciət edərək azərbaycanlılara qarşı törədilmiş soyqırımı kimi hallarla dünyanın hər bir yerində amansız mübarizə aparmaq üçün səylərin birləşdirilməsinə çağırmışdır.

Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. 2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamı ilə “Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı” təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub.

Azərbaycan xalqının hər il qeyd etdiyi “Azərbaycanlıların Soyqırımı Günü” həmin məqsədlərə və dünya ictimaiyyətinin diqqətinin bu gün də davam edən şovinizm, separatçılıq hallarına cəlb edilməsinə xidmət edir. Yaddan çıxarmaq olmaz ki, biz hamımız – dünyanın bütün xalqları bəşəriyyətin gələcək əmin-amanlığına məsuliyyət daşıyırıq.

Soyqırımı bəşəriyyət əleyhinə ən ağır cinayətdir. Bu anlayış Azərbaycan Respublikası Cinayət Məcəlləsinin “Sülh və insanlıq əleyhinə cinayətlər” adlanan 7-ci bölməsində öz əksini tapıb. Lakin ürəkağrısı və böyük təəssüf hissi ilə qeyd etmək olar ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-ci bölməsində göstərilən bütün cinayətlər Azərbaycan ərazisində və Azərbaycan vətəndaşlarına qarşı törədilib və bu günə kimi bu amansız cinayətləri törədən şəxslərdən heç kimi mühakimə etmək mümkün olmayıb.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət” beynəlxalq kampaniyası başlanmışdır. Kampaniya Xocalı soyqırımı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və nəticələri ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədini daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlmişdir.

Xocalı soyqırımının törədilməsindən ötən dövr ərzində Azərbaycan dövlətinin xarici siyasətində əsas prioritet istiqamətlərdən biri bu soyqırımının beynəlxalq aləmdə tanıdılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı işlərin aparılması olub.

Son 34 il ərzində Xocalı soyqırımını insanlıq əleyhinə cinayət hesab edən bir sıra ölkələr, eləcə də beynəlxalq təşkilatlar faciəni soyqırımı aktı olaraq tanıyıblar. Belə ki, 2012-ci il fevral ayının 2-də Meksika Senatı Xocalı şəhərində 1992-ci il fevralın 25-26-da baş vermiş faciəni soyqırım adlandırılıb. 2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı soyqırımını pisləyən qətnamə qəbul edib. 2012-ci il aprelin 24-də Kolumbiya parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb. 2013-cü il fevralın 19-da Çexiya parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb. 2013-cü il fevralın 26-da Bosniya və Herseqovina parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb. 2013-cü ildə Peru Respublikasının parlamenti tərəfindən Xocalı soyqırımı rəsmən tanınıb. Honduras Milli Konqresi 17 yanvar 2014-cü il tarixdə Xocalı soyqırımını tanıyan qərar qəbul edib. 2013-cü ildə Rumıniya Parlamenti Xocalı soyqırımı ilə bağlı bəyanat qəbul edib. 2014-cü ildə Sudan Respublikasının parlamenti Xocalı şəhərində baş vermiş qanlı hadisələri soyqırımı aktı kimi tanıyıb. 2011-ci ildə Texas, Nyu-Cersi, 2012-ci ildə Corciya, Men, 2013-cü ildə Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, West Virginia, Connecticut, Florida, 2014-cü ildə İndiana, 2015-ci ildə Arizona ştatları Xocalı soyqırımını rəsmən tanıyıblar. 2013-cü il 7 avqustda Panama Respublikasının Milli Assambleyası “Ermənistan qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalı üzrə” qətnamə qəbul edib. 2015-ci il 12 oktyabrda Qvatemala Konqresində Xocalı soyqırımı ilə bağlı qətnamə qəbul edilib. 2015-ci il 26 fevral Latviya Seyminin Azərbaycanla parlamentlərarası dostluq qrupunun iclasında Xocalı soyqırımı ilə əlaqədar, Azərbaycanla parlamentlərarası dostluq qrupu adından bəyanat qəbul edib. İordaniya parlamenti 2016-cı il Xocalı soyqırımını rəsmən tanıyıb. 20 yanvar 2016-cı il tarixində Sloveniya Respublikasının Milli Şurası Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar qəbul edib. 2017-ci il fevral ayının əvvəllərində Şotlandiya Parlamentində Xocalı soyqırımına siyasi qiymət verilməsi qərara alınıb. 2017-ci il Cibuti Respublikası Milli Assambleyası Xocalı Soyqırımına dair qətnamə qəbul edib. 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı da Xocalı soyqırımını tanıyıb.

Xocalı soyqırımını XX əsrin ən böyük cinayəti adlandıran ölkə Prezidenti cənab İlham Əliyev demişdir: *“...bilirsiniz ki, ermənilər xaricdəki imkanlarından istifadə edərək, dünya birliyinə Xocalı faciəsi haqqında təhrif edilmiş məlumatlar çatdırmağa cəhd etmişlər. Əfsuslar olsun ki, uzun illər ərzində buna müvəffəq olmuşlar... bizim siyasətimiz, xüsusilə xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız bu vəziyyəti, demək olar ki, tamamilə dəyişdirdi... Biz bütün ölkələrdə kampaniyalar keçiririk, həm səfirliklər, həm də Heydər Əliyev Fondu vasitəsilə. Bildiyiniz kimi fond bu məsələ ilə çox fəal məşğul olur. Bizim təşəbbüsümüzlə yaradılmış İslam Konfransı Təşkilatının Gənclər Forumu da bu məsələ ilə bağlı fəal işləyir... Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir... Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq edən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir”.*

***Bəli, o gün gəldi.***

***Xocalı şəhəri 2023-cü ilin sentyabr ayının 19-da başlayan və cəmi 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Müzəffər ordumuz tərəfindən terrorçu dəstələrindən azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli müqəddəs bayrağımızı ucaltdı. “Böyük Qayıdış” Proqramı çərçivəsində isə Xocalı sakinləri öz doğma yurd-yuvalarına qayıdırlar.***

***Bu gün isə hər birimiz qalib xalq kimi Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini anır, onların müqəddəs və pak ruhlarını yad edirik!***

***Faiq Səfərov***
***Azərbaycan Respublikasının müharibə veteranı Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, pokurorluğun fəxri işçisi***

# Dilin ruhu, mətnin sehri

Dil öyrənməyə olan marağın kütləviləşdiyi müasir dövrümüzdə, tədris metodlarının da eyni sürətlə transformasiyaya uğraması təbiidir. Artıq standart qaydalar kifayət etmir; hər bir fərd öz ehtiyacına uyğun, daha effektiv yollar axtarışındadır. Bu məqamda bədii yaradıcılıq nümunələri, dili bütün rəngləri ilə əks etdirən ən etibarlı bələdçi rolunu oynayır. Çünki ədəbiyyatı dildən, dili isə ədəbiyyatdan ayrı təsəvvür etmək mümkün deyil. Bir dilin yaddaşda möhkəmlənməsi və real ünsiyyətdə canlanması üçün seçilən materialların keyfiyyəti hər şeydən vacibdir. Dili quru qaydalar yığını olmaqdan çıxarıb ona həyat verən məhz ədəbi mətnlərdir. Buna görə də təlim prosesində hekayə, şeir, dram əsərləri və ya lətifə kimi fərqli janrlara, hətta yumoristik karikaturalara müraciət etmək öyrənmə prosesini həm maraqlı edir, həm də nəticənin qalıcı olmasını təmin edir.

Müasir dövrdə yeni bir dilə yiyələnmək artıq ehtiyacdan daha çox, bir zərurət halını alıb. Lakin çoxumuz quru qrammatika qaydaları arasında sıxılıb qalırıq. Əslində isə dilin ruhu onun ədəbiyyatında gizlənir. Bədii əsərlər bizə dünyanı sadəcə sözlərlə deyil, rəngarəng simvollar və dərin mənalar vasitəsilə təsvir edir. Əlbəttə, bu mətnlərin çoxqatlı və bəzən üstüörtülü (alleqorik) dili yeni öyrənənlər üçün bir qədər çətin görünə bilər. Çünki hər bir sənət nümunəsi həm bir dil xəzinəsidir, həm də müəllifin özünəməxsus dünyagörüşünün aynasıdır.

Bəs bu çətinliyi necə aşmalı? Dil öyrənən şəxsin həvəsini sındırmamaq üçün material seçimi olduqca incə bir məqamdır. Tədrisdə istifadə olunan mətnlər öyrənənin mövcud səviyyəsi ilə elə uzlaşmalıdır ki, o həm bildiklərini möhkəmləndirsin, həm də hər sətirdə yeni bir şey kəşf etsin. Burada ən effektiv yol “spiralvari” yanaşmadır; yəni köhnə məlumatları təkrar edərək yeni bilikləri onun üzərində inşa etmək. Bu üsulla seçilən hekayələr, şeirlər və ya kiçik esselər öyrənmə prosesindəki gərginliyi aradan qaldırır, dili quru bir dərs olmaqdan çıxarıb canlı bir ünsiyyət vasitəsinə çevirir.

Xarici dilə yiyələnmək istəyənlər üçün ədəbi əsərlər sadəcə bir mütaliə vasitəsi deyil, həm də canlı və zəngin bir təlim laboratoriyasıdır. Ədəbiyyatın bu sahədəki ən böyük töhfəsi isə hədəf dili birbaşa “mənbəyindən” öyrətməsidir. İstər sinif mühitində, istərsə də fərdi qiraət zamanı bədii nümunələrlə təmasda olmaq, dili düzgün və axıcı istifadə etmək bacarığını inanılmaz dərəcədə sürətləndirir.

Bədii mətnləri digər tədris vəsaitlərindən fərqləndirən əsas cəhət onlardakı təbiilikdir. Burada sözlər və cümlə quruluşları süni dərsliklərdəki kimi deyil, məhz həmin dilin daşıyıcılarının gündəlik həyatda istifadə etdiyi reallıqda qarşımıza çıxır. İnversiyalar, rəngarəng frazeoloji birləşmələr və obrazlı ifadələrlə zəngin olan bu qaynaqlar, dili bütün incəlikləri ilə mənimsəmək üçün ideal bir modeldir.

Lakin məsələ təkcə qrammatika ilə bitmir. Ədəbi əsər oxucunu sətiraltı mənaları kəşf etməyə, dərində yatan mesajları anlamağa sövq edir ki, bu da birbaşa tənqidi və yaradıcı təfəkkürün inkişafı deməkdir. Mətnin daxilindəki zəngin söz ehtiyatı və canlı dialoqlar eyni zamanda dörd əsas bacarığı — oxu, yazı, danışıq və dinləməni paralel şəkildə inkişaf etdirmək üçün tükənməz imkanlar təqdim edir. Bir sözlə, ədəbiyyat dili sadəcə öyrətmir, həm də onu hiss etməyə kömək edir.




Xarici dil öyrənmək sadəcə yeni sözlər əzbərləmək deyil, həm də fərqli bir dünyanın qapısını aralamaqdır. Bu yolda ədəbi nümunələr ən etibarlı bələdçi hesab olunur. Çünki hər bir hekayə və ya şeir, öyrənilən dilin mənsub olduğu cəmiyyətin mədəni kodlarını, inanclarını və minillik ənənələrini özündə daşıyır. Əslində, tədris proqramlarını bədii materiallarla zənginləşdirmək, tələbənin dil qavrayışını sürətləndirən ən mühüm amildir.

Lakin burada bir incə məqamı qaçırmamaq lazımdır. Sinif otağına gətirilən ədəbi mətn sadəcə bir fənn kimi deyil, bir inkişaf aləti kimi təqdim edilməlidir. Yəni, müəllimin əsas hədəfi ədəbiyyat nəzəriyyəsini öyrətmək deyil, bu mətn vasitəsilə tələbənin həm dil, həm də fərdi dünyagörüşünü formalaşdırmaq olmalıdır.

Hər bir tələbə qrupunun özünəməxsus ehtiyacları və öyrənmə tərzi var. Peşəkar bir pedaqoq da məhz bu amili nəzərə alaraq, mövcud metodlar arasından ən effektlisini seçməyi bacarmalıdır. Məqsəd dərsi sadəcə quru məlumat ötürücüsünə çevirmək deyil, tələbəni bir dilin daxili dünyasına səyahətə çıxarmaqdır. Bu yanaşma öyrənmə prosesini həm maraqlı edir, həm də əldə olunan biliklərin ömürlük yaddaşa köçməsini təmin edir.

***İsmət Cəfərova***
***“İngilis dili və tərcümə” kafedrasının müəllimi***

# Qərbi Azərbaycana qayıdış: susdurulmuş bir həqiqətin geri dönüşü




Bəzi mövzular var ki, illərlə səssiz qalır. Onlar nə unudulur, nə də danışılır. Sadəcə tarix kitablarının arxa səhifələrində, ailə xatirələrinin pıçıltısında yaşayır. Qərbi Azərbaycana qayıdış məsələsi də məhz belə mövzulardandır.

Bu anlayış son illər daha tez-tez səslənsə də, onun mahiyyəti hələ də bədxahlar tərəfindən yanlış təqdim olunur. Halbuki söhbət nə torpaq iddiasından, nə də siyasi qarşıdurmadan gedir. Söhbət insanın doğulduğu yerə qayıtmaq hüququndan gedir.

İndiki Ermənistan ərazisində – İrəvanda, Göyçədə, Zəngəzurda, Vedibasarda – azərbaycanlılar əsrlərlə yaşamışdılar. Onların kəndləri vardı, məscidləri, qəbiristanlıqları, məktəbləri vardı. Bu həyat bir gecədə yox olmadı. Əvvəl məktəblər bağlandı, sonra yer adları dəyişdirildi, daha sonra isə insanlar "öz istəyi ilə" köçməyə məcbur edildi.

Əslində isə bu, klassik köç deyildi. Bu, insanı yaşadığı məkandan bezdirərək çıxarmaq siyasəti idi. Tarixdə buna az diqqət yetirilsə də, onun izləri hələ də insanların yaddaşında dərin qalır.

Bu gün Ermənistan xəritəsinə baxanda yüzlərlə kənd görərsiniz. Amma həmin kəndlərin çoxunun adları süni şəkildə dəyişdirilib. Maraqlı olan odur ki, bəzi yaşayış məntəqələri fiziki olaraq qalır, lakin onların tarixi kimliyi tamamilə silinib. Bu sadəcə toponim dəyişikliyi deyil. Bu, yaddaşın xəritədən silinməsi cəhdidir.

Lakin xəritələr dəyişsə də, yaddaş dəyişmir. Qərbi Azərbaycandan köçürülmüş ailələrin üçüncü, dördüncü nəsli belə ata-baba kəndlərinin adını, yerini, hətta bulaqlarını xatırlayır. Bu, təsadüf deyil. Bu, insanın torpaqla bağının nə qədər güclü olduğunu göstərir.

Bir ziyalı kimi bilirəm ki, torpağın tarixi və mədəniyyəti yalnız kitablarda deyil, insanların yaddaşında, xatirələrində yaşamalıdır. Çünki hər kəndin, hər yerin özünəməxsus hekayəsi var və bu hekayələri unutmaq olmaz. Elə buna görə də bu torpağın yaddaşı bizim üçün sadəcə keçmiş deyil, həm də mənəvi dəyərdir. Hər xatirə keçmişlə gələcək arasında qurulan bir körpüdür və qayıdış ideyası həmin körpünü daha da möhkəmləndirir.

Qayıdış deyəndə çoxları bunu kütləvi köç, yaxud ani proses kimi təsəvvür edir. Halbuki bu anlayışın mahiyyəti daha sadədir:

İnsanlara seçim haqqı verilməlidir. Kimisi geri dönmək istəyər, kimisi mülkiyyətinin tanınmasını, kimisi isə sadəcə başına gələnlərin etirafını. Bu, müasir dünyada normal sayılan bir hüquqdur. Maraqlıdır ki, bu yanaşma keçmiş sovet məkanında nadir hallarda bu qədər açıq və dinc şəkildə səsləndirilmişdir.

Bu məsələni siyasiləşdirmək və ərazi iddiası kimi təqdim etmək doğru deyil. Çünki burada əsas mövzu sərhədlər yox, ləyaqətdir.

Qərbi Azərbaycana qayıdış keçmişə qayıtmaq deyil. Bu, **keçmişlə hesablaşmaqdır**. Susdurulmuş bir həqiqətin sakit, dinc və hüquqi şəkildə geri dönüşüdür.

Qeyd etmək istərdim ki, bu mövzu mənim üçün şəxsi taleyin birbaşa davamı deyil, lakin mənə yad da deyil. Çünki insanın doğulduğu yerdən qoparılması üçün mütləq həmin torpaqda doğulması şərt deyil. Bəzən bir xalqın yaddaşında baş verənlər başqa insanların vicdanında da dərin iz buraxır.

Məhz bu cür izlər zamanla susmur, əksinə, öz sözünü deməyə başlayır.

Tarix göstərir ki, unudulan problemlər həll olunmur. Onlar sadəcə gecikir. Məhz buna görə də Qərbi Azərbaycana qayıdış ideyası bu gün yenidən gündəmə gəlir: gecikmiş, amma qaçılmaz bir ədalət çağırışı kimi. Qərbi azərbaycanlılar bu missiyanı Qərbi Azərbaycana sülh yolu ilə, ləyaqətli və təhlükəsiz qayıdışın təmin edilməsi kimi dəyərləndirirlər.

*Sərcan Sadiqova*
*Filologiya üzrə fəlsəfə doktoru,*
*"İngilis dili və tərcümə" kafedrasının baş müəllimi*

# Süni intellekt və folklor: rəqəmsal dövrdə mədəni irsin qorunması

Müasir informasiya cəmiyyətində texnologiyanın sürətli inkişafı həyatın bütün sahələrinə nüfuz etmişdir. Süni intellekt artıq yalnız iqtisadi və texniki sahələrdə deyil, humanitar istiqamətlərdə də mühüm rol oynayır. Xüsusilə milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından bu texnologiyanın imkanları geniş müzakirə mövzusuna çevrilmişdir. Xalqın tarixi yaddaşını, dünyagörüşünü və mənəvi dəyərlərini özündə əks etdirən folklor rəqəmsal dövrdə həm yeni imkanlarla, həm də yeni çağırışlarla üzüzədir.

Folklor hər bir xalqın kimliyini formalaşdıran əsas komponentlərdəndir. Nağıllar, dastanlar, bayatılar, atalar sözləri, məsəllər və rəvayətlər yalnız bədii təfəkkürün məhsulu deyil, həm də sosial münasibətlərin, etik normaların və kollektiv şüurun ifadəsidir. Bu nümunələr əsrlər boyu şifahi şəkildə nəsildən-nəslə ötürülərək cilalanmış, zamanın süzgəcindən keçərək zənginləşmişdir. Lakin son illər urbanizasiya, qloballaşma və kommunikasiya vasitələrinin transformasiyası nəticəsində şifahi ənənələrin zəifləməsi müşahidə olunur. Bu şəraitdə süni intellekt texnologiyaları folklorun qorunması istiqamətində mühüm alət kimi çıxış edir.

Süni intellekt vasitəsilə böyük həcmli mətnlər qısa müddətdə rəqəmsallaşdırıla, təsnif edilə və analiz oluna bilər. Dialekt və arxaik ifadələrin müəyyənləşdirilməsi, müxtəlif variantların müqayisəli tədqiqi, səs yazılarının mətnə çevrilməsi və arxivləşdirilməsi bu sahədə aparılan elmi işlərin keyfiyyətini artırır. Beləliklə, vaxtilə yalnız məhdud auditoriya tərəfindən dinlənilən folklor nümunələri rəqəmsal platformalar vasitəsilə qlobal miqyasda əlçatan olur.

Bununla yanaşı, süni intellekt folklorun tədrisi və populyarlaşdırılması sahəsində də innovativ imkanlar yaradır. İnteraktiv tətbiqlər, animasiyalar və virtual mühitlər qədim hekayələri müasir təqdimat formasında canlandırır, xüsusilə gənc nəslin milli irsə marağını artırır. Bu, ənənə ilə müasirlik arasında körpü rolunu oynayır.

Lakin məsələnin digər tərəfi də mövcuddur. Süni intellekt alqoritmləri mövcud məlumat bazasına əsaslanaraq folklor üslubunda yeni mətnlər yarada bilir. Bu isə autentiklik məsələsini gündəmə gətirir. Süni şəkildə yaradılmış məzmunun orijinal xalq yaradıcılığı ilə qarışdırılması folklorşünaslıq baxımından ciddi metodoloji problemlər yarada bilər. Folklor yalnız mətn deyil; o, müəyyən tarixi şərait, sosial mühit və ifa ənənəsi daxilində formalaşan canlı mədəni hadisədir. Rəqəmsallaşdırma prosesində bu çoxqatlı kontekstin itirilməsi təhlükəsi mövcuddur.

Məsələyə praktik nümunə ilə yanaşdıqda fərq daha aydın görünür. Vətən mövzusunda xalq dilindən gələn bir bayatıya diqqət yetirək:

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi,
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Bu nümunə həm obrazlılıq, həm də tarixi təcrübənin ümumiləşdirilməsi baxımından dərin semantik yük daşıyır. "Vətən viran da olsa" ifadəsi xalqın yaşadığı sarsıntıları və tarixi



ağrıları ehtiva edir.

Süni intellekt tərəfindən yaradılmış bayatı isə belədir:

Dağ küləyi sinəmdə,
Yurd nəfəsi qanımda.
Vətən bir ad deyil ki,
Yaşayar hər yanımda.

Forma baxımından uyğunluq müşahidə olunsa da, burada kollektiv tarixi təcrübədən doğan konkretlik deyil, ümumiləşdirilmiş poetik konstruksiya üstünlük təşkil edir. Bu müqayisə göstərir ki, süni intellekt folklorun strukturunu modelləşdirə bilir, lakin onun yaranma mexanizmini – yəni kollektiv yaddaşın təbii seçimini və emosional dərinliyini – tam şəkildə təkrarlaya bilmir.

Digər mühüm məqam etik və metodoloji yanaşmadır. Süni intellekt sistemləri folklor nümunələrini kommersiya və ya digər məqsədlərlə istifadə edərkən mənbələrin göstərilməsi, kontekstin qorunması və mədəni müxtəlifliyə hörmət prinsiplərinə riayət olunmalıdır. Xüsusilə kiçik xalqların folklor irsinin təhrif olunması və ya yanlış interpretasiyası mədəni identiklik baxımından risk yarada bilər.

Beləliklə, süni intellekt folklorun qorunması, sistemləşdirilməsi və geniş auditoriyaya çatdırılması istiqamətində strateji əhəmiyyətə malikdir. O, mədəni irsi zaman və məkan məhdudiyyətlərindən azad edərək daha davamlı şəkildə yaşamasına şərait yaradır. Lakin texnologiya folklorun əvəzedicisi deyil, onun rəqəmsal qoruyucusu və köməkçi vasitəsidir.

Nəticə etibarilə, süni intellekt və folklor arasında qarşıdurma deyil, tamamlanma münasibəti mövcuddur. Düzgün elmi və etik yanaşma əsasında texnologiya milli kimliyin qorunmasına və mədəni davamlılığın təmin olunmasına xidmət edə bilər. Əsas məsələ ənənə ilə innovasiya arasında balansın qorunmasıdır. Yalnız bu halda rəqəmsallaşma folklorun zəifləməsinə deyil, onun yeni müstəvidə yaşamasına şərait yaradacaqdır.

*Sahilə Abbasova*
*Naxçıvan Dövlət Universitetinin doktorantı*

# Qürur mənbəyimiz – Azərbaycan bayrağı

***Bayraq hər bir xalqın mənəviyyatı, müstəqilliyinin təcəssümü, azadlıq arzusudur. Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün bayrağımız Azərbaycanın hər yerində Qarabağda, Xankəndidə, Şuşada və digər işğaldan azad olunmuş torpaqlarımızda dalğalanır. Çünki bayrağımız xalqımızın əzəmətinin göstəricisidir.***

Dünyanın qədim xalqlarından olan Azərbaycan xalqı milli mədəniyyətini, zəngin ənənə və dəyərlərini yaşadaraq yad təzahürlərdən hifz etməklə tarixi etnos kimi mövcudluğunu daim qoruyub. Tariximizin əsas eksponatları sırasında yer tutan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Müasir anlamda isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədəki fəaliyyəti dövründə — 1918-ci il iyunun 24-də üzərində ağ rəngli, aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin Bakıda fəaliyyətə başlamasından az sonra bayraq haqqında ikinci qərar qəbul edildi.

Dövlət bayrağımız 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. O zamankı Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı qərarda deyilir: “Milli bayraq kimi yaşıl, qırmızı, mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin”.

Müstəqil Azərbaycanın bayrağındakı üç rəng XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın “Türkçülük, islamçılıq və müasirlik” kimi üç təməl prinsipini təşkil edir.

Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olması, türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Qədim və orta əsrlərdə türkdilli xalqlar yaşadıqları ərazilərdə yaratdıqları saysız-hesabsız abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng simvolik məna daşıyır. Göy rəng həm də XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirir.



Qırmızı rəng – müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşmək, inkişaf istəyi ifadə edir. Məlum olduğu kimi, XVIII əsrin sonlarında Fransada baş verən inqilabdan sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrilmişdi. Əli bəy Hüseynzadə yazırdı: “Avropalaşalım, firənglələşək deyirsiniz. Lakin ey qare (ey oxucu), müraciətdən müraciətə fərq vardır. Biz avropalıların ədəbiyyatına, sənayelərinə, ümum və maariflərinə, kəşf və ixtiralarına müraciət etmək istəriz, özlərinə deyil! Biz istəriz ki, islam ölkəsinə onların beyinləri, elmləri girsin!”.

Yaşıl rəng – islam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir. Böyük mütəfəkkir Əli bəy Hüseynzadə “Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar” əsərində yaşıl rəngin geniş izahını vermişdir.

Qırmızı rəngin üzərində ortada aypara və səkkizguşəli ulduzun təsviri verilib.

Bayrağımızın üzərindəki ay-ulduzun da simvolik mənaları vardır. Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var.

Bayrağın üzərindəki ağ rəngli ay nişanı türkçülüyün, səkkizguşəli ulduz isə «Azərbaycan» sözünün əski əlifbada səkkiz hərflə yazılışının göstəricisidir. Bəzi mənbələrə görə isə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət prinsipləri müəyyənləşərkən səkkiz atributa əsaslanıb. Bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Səkkizguşəli ulduzun hər bucağı bu prinsiplərin bir rəmzidir.

Üçrəngli bayrağımız ilk dəfə 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin birinci toplantısının açılışında dalğalanıb. 1919-cu ildə keçirilən Paris Sülh Konfransında bayrağımız Fransada dalğalanıb. Görkəmli Azərbaycan yazıçısı və dramaturqu Cəfər Cabbarlı, zəmanəsinin böyük şairləri Məhəmməd Hadi, Əhməd Cavad, Mikayıl Müşfiq və başqaları şeirlərində üçrəngli bayrağımızı böyük sevgi ilə öymüş, onu ulduzlardan da yüksəkdə dayanan hilala bənzətmiş xalqın öz tarixinə sahib çıxmasından söz açmışlar.

Üçrəngli bayrağımız 1920-ci ilin aprel işğalına qədər dövlətimizin başı üzərində dalğalanmış, lakin müstəqilliyin süqutundan sonra yasaq edilərək yığışdırılmışdır. Azərbaycanın üçrəngli bayrağı ikinci dəfə Ümummilli Liderimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin iclas zalında qaldırıldı. Azərbaycanın üçrəngli bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin qərarı ilə bərpa olundu və muxtar dövlətimizin dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Soveti Azərbaycan Respublikası Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan SSR Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Sovetinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul olunması haqqında qərar çıxarmış, onun Əsasnaməsini təsdiq etmişdir.

Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində isə qeyd olunur ki, «Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir». Ulu Öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» Sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşımışdır. Ulu öndər çıxışlarında dəfələrlə bildirmişdir: “Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”.

Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizin daha da qüdrətlənməsi və dünya birliyində tutduğu layiqli yeri möhkəmləndirmək üçün ötən illərdə böyük işlər həyata keçirmişdir. Həmçinin Prezident İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması və 17 noyabr 2009-cu ildə Azərbaycanda Dövlət Bayrağı Gününün elan edilməsi barədə sərəncamlar imzalamışdır. 17 ildir ki, 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

162 metr yüksəklikdə dalğalanan Azərbaycanın üçrəngli bayrağı bu gün ayrı-ayrı dövlət qurumlarının, diplomatik nümayəndəliklərinin binaları üzərində ucaldılır, mühüm beynəlxalq tədbirlərdə, mötəbər mərasimlər və məclislərlə yanaşı, ictimai-siyasi toplantılarda, kütləvi mədəni yığıncaqlarda, idman yarışlarında dalğalandırılaraq milli birliyi təcəssüm etdirir. Azərbayca Respublikasının dövlət bayrağının Bakı şəhərinin ən möhtəşəm guşəsində dalğalanması ölkəmizin hər bir vətəndaşında milli özünüdərk və müstəqillik ideallarını, həmrəylik duyğularını gücləndirir. Dövlət Bayrağı Meydanı dövlətçiliyimizin keçdiyi şərəfli tarixi, onun hansı təməl prinsiplərinə, ideoloji sütunlara söykəndiyini nümayiş etdirməklə yanaşı, xalqın müstəqil dövlətini görmək, inkişaf etdirərək yaşatmaq əzmini möhkəmləndirir.

Şair Xanəli Kərimlinin Bayraq şeirində deyildiyi kimi:

O qalxıb ucaldıqca  
Bayraqların içində,  
Ucalır millətim də  
Millətlərin içində.

*Səlbinaz Məmmədova*  
*Dövlət Bayrağı Muzeyinin kiçik elmi işçisi*

# Sükan arxasında “xanlıq” edənlər

Şəhərin axarında o dar asfalt yollarda hər gün minlərlə insan bir nöqtədən digərinə daşınır. Bu hərəkət məkandan-məkana keçməklə minlərlə fərqli taleyin, fərqli tərbiyənin və daxili dünyanın bir neçə kvadratmetrlik metal qutuların içində kəsişməsidir. Amma, təəssüf ki, çox vaxt bu kəsişmə nöqtəsi sərnişinlər üçün mənəvi işgəncəyə çevrilir. Səbəb isə sadə, lakin dəhşətlidir. Səbəb sürücünün ağzından çıxan və ətrafa zəhərli duman kimi yayılan vulqar ifadələrdir.

Təsəvvür edin ki, yorğun bir iş günündən sonra və ya səhər tezdən ümidlərlə yola düzəlmisiniz. Yanınızda ağ saçlı bir ana, qarşı tərəfdə kitabına sarılmış bir tələbə, küncdə isə dünyanı hələ yeni-yeni dərk edən bir uşaq var. Birdən qarşıdakı avtomobil gözlənilməz dayanır və ya işıqforun qırmızı işığı sürücünün “planlarını” pozur. O an sükut elə bil nifrətlə parçalanır.

Sürücü söyür... Heç kimi saymadan, heç kimdən utanmadan, sanki salonda ondan başqa heç bir insan yoxmuş kimi. O söyüşlər həm qarşıdakı “rəqibə”, həm də o dar məkanda əyləşən hər bir insanın ləyaqətinə atılan palçıqdır. O an salonda yaranan o ağır sükut, əslində, sərnişinlərin sürücüyə verdiyi ən böyük “məhkumiyyət” səsidir. İnsanlar bir-birinin üzünə baxa bilmir, çünki yad bir adamın tərbiyəsizliyi onları utandırır.

Bəzi sürücülər elə zənn edirlər ki, o sükanın arxasına keçdikləri andan etibarən həmin maşın onların şəxsi feodal mülkünə, “özəl krallığına çevrilir. Onlar unudurlar ki, sərnişin mənzil başına çatdırılmalı olan bir “yük” deyil. Sərnişin hüququ olan, hörmət gözləyən və ən əsası, sürücünün daxili dünyasının çirkinliyini dinləməyə məcbur olmayan bir fərddir.

Vulqarizm, əslində, acizliyin ən ali ifadəsidir. Öz hisslərinə, hirsinə və idarəetmə qabiliyyətinə hakim ola bilməyən insan söyüşə sığınır. Amma sükan arxasındakı adam anlamalıdır ki, söyüşləri sovurarkən o sadəcə “əsəbi sürücü” olmur, cəmiyyətin etik sütunlarını baltalayan, ictimai məkanda mənəviyyat qatilinə çevrilən bir fərd olur. Sizin “əsəbimə hakim ola bilmədim” bəhanəniz kiminsə ruhunda açdığınız o yaradan daha yüngüldür.

Bizim cəmiyyətdə tez-tez bir bəhanə eşidirik: “Yoldur da, əsəbidir, fikir verməyin”. Xeyr, fikir verməliyik! Çünki biz fikir vermədikcə, o söyüşlər daha ucadan səslənir. Sükut da bu çirkinliyin ən böyük qidasıdır. Yaşlı bir qadının yanında ən ağır küçə söyüşlərini işlətməyi özünə rəva bilən sürücü, əslində bizim göstərdiyimiz dözümdən, o səssiz razılığımızdan güc alır.

Bu mədəniyyət məsələsi ilə yanaşı, həm də bir təhlükəsizlik məsələsidir. Öz dilinə hakim ola bilməyən birinin, tonlarla ağırlığı olan metal kütləsinə və içindəki onlarla cana tam hakim olduğuna necə inana bilərik? Ruhu qəzəblə dolu olanın əli də, ayağı da hər an xəta etməyə meyillidir. Vulqar sözlər, əslində, sükanın sarsılmasının səsidir.

Yol mədəniyyəti təkcə yol hərəkəti qaydalarına riayət etmək, cərimələrdən qaçmaq sayılmır . Əsl yol mədəniyyəti o sükanın arxasında bir insan olduğunu unutmamaqdır. Yanındakı sərnişinin bacın, qardaşın, atan və ya anan ola




biləcəyini dərk etməkdir. Biz küçələrimizin təmiz olmasını, binalarımızın bəzəkli olmasını istəyirik, amma mənəvi havamızın, səs mühitimizin çirklənməsinə göz yumuruq.

Sürücülərin bu davranışı şəhərin estetikasına vurulan ən böyük zərbədir. Biz bu yollarda sadəcə mənzil başına getmirik, biz hər gün bir-birimizin həyatından keçirik. Yolları söyüşlərdən təmizləyək ki, mənzil başından çox, insanlığa çataq.

*Elnurə Cəfərova*  
*Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi*

# "Azərbaycan Mədəniyyəti – 2040: Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" mədəni irsin qorunmasının təməl daşıdır

Azərbaycan mədəniyyəti, xüsusilə milli musiqi mədəniyyəti xalqın tarixi yaddaşını, mənəvi dünyasını və milli kimliyini formalaşdıran əsas dayaqlardan biridir. Qədim türk etno-mədəni mühitindən qaynaqlanan Azərbaycan musiqisi əsrlər boyu şifahi ənənə, ustad-şagird məktəbi və zəngin yaradıcılıq təcrübəsi vasitəsilə inkişaf edərək bu gün dünya miqyasında tanınan bənzərsiz mədəni irsə çevrilib. Muğam sənəti, xalq musiqisi janrları və klassik bəstəkarlıq məktəbi milli musiqi mədəniyyətimizin əsas mənbələri kimi xalqımızın tarixi-mənəvi varlığını dolğun şəkildə ifadə edir.

Azərbaycan milli musiqisinin formalaşması və inkişafı təsadüfi deyil, tarixən dövlətçilik düşüncəsi və milli özünüdərk prosesi ilə vəhdətdə baş verib. Müstəqillik dövründə Azərbaycan milli musiqisinin qorunması və inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətinin ideya və strateji əsasları Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev milli mədəniyyəti, xüsusilə də musiqi sənətini xalqın mənəvi varlığının, tarixi yaddaşının və dövlətçilik şüurunun ayrılmaz tərkib hissəsi kimi qiymətləndirir, bu sahənin inkişafını milli təhlükəsizlik və ideoloji sabitlik kontekstində dəyərləndirirdi. Onun rəhbərliyi dövründə Azərbaycan musiqisi, muğam sənəti, aşıq yaradıcılığı və klassik bəstəkarlıq məktəbi sistemli şəkildə dövlət qayğısı ilə əhatə olunmuş, görkəmli sənətkarların yaradıcılığı yüksək səviyyədə qiymətləndirilmişdir.

Bu siyasi və ideoloji xətt müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli mədəniyyətə, xüsusilə musiqi və muğam sənətinə göstərdiyi ardıcıl diqqət və qayğı xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən mədəni proqramlar və layihələr milli musiqi irsinin müasir dövrün tələblərinə uyğun inkişafına real zəmin yaradır.

Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan milli musiqi mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasında və muğam sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri ayrıca vurğulanmalıdır. Onun təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən muğam festivalları, elmi-praktik layihələr, tədris və nəşr proqramları milli musiqi mədəniyyətimizin sistemli qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Məhz bu siyasi və mədəni kontekst daxilində "Azərbaycan Mədəniyyəti – 2040: Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" milli irsin qorunması və inkişafı üçün strateji yol xəritəsi rolunu oynayır. Konsepsiya milli musiqi irsinin müasir texnologiyalar vasitəsilə sənədləşdirilməsini, tədris sisteminin gücləndirilməsini, beynəlxalq mədəni inteqrasiyanı və yaradıcı sənayelərin inkişafını əsas prioritetlər kimi müəyyən edir. Bu sənəd mədəniyyəti yalnız keçmişin mirası kimi deyil, gələcəyə yönəlmiş dinamik inkişaf resursu kimi təqdim edir.

Konsepsiyanın real və davamlı uğuru onun bütün regionlarda olduğu kimi, zəngin mədəni irsə malik olan Naxçıvanda da milli-mənəvi dəyərlərin qorunması, musiqi və folklor irsinin sistemli şəkildə yaşadılması, yaradıcı mühitin gücləndirilməsi və mədəni potensialın regional inkişaf strategiyalarına inteqrasiyası ilə bilavasitə bağlıdır. Naxçıvan musiqi mədəniyyəti tarixən Azərbaycan milli musiqi irsinin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, özünəməxsus ifa üslubu və yaradıcılıq mühiti ilə seçilir. Muğam və aşıq sənəti, xalq musiqisi nümunələri və klassik ifaçılıq ənənələri bu bölgədə nəsildən-nəslə ötürüləək bu gün də canlı şəkildə yaşadılır.

Müasir dövrdə rəqəmsal texnologiyaların mədəniyyət sahəsinə daxil olması yeni imkanlarla yanaşı, milli kimliyin qorunması baxımından müəyyən çağırışlar da yaradır. "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası bu çağırışlara cavab olaraq ənənə ilə müasirlik, tarixlə innovasiya arasında tarazlığın qorunmasını əsas prinsip kimi irəli sürür. Bu yanaşma Azərbaycan musiqi mədəniyyətinin tərkib hissəsi olan Naxçıvan musiqi mühitində də öz real əksini tapır. Virtual muzeylər, elektron arxivlər və onlayn mədəni platformalar vasitəsilə regionun musiqi irsi artıq yalnız yerli auditoriya ilə məhdudlaşmır, beynəlxalq mədəni dövriyyəyə daxil olur. Nəticədə mədəniyyət istehlak olunan dəyərdən çıxaraq istehsal edilən və ixrac potensialına malik strateji resursa çevrilir.

Konsepsiyanın əsas istiqamətlərindən biri olan kreativ industriyaların inkişafı Naxçıvanda musiqi və səhnə sənətinin yeni mərhələyə keçidini stimullaşdırır. Bu baxımdan Naxçıvan Dövlət Filarmoniyası, uşaq musiqi məktəbləri, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi regionun mədəni həyatında aparıcı rol oynayan əsas mərkəzlərdir.

Xüsusilə Naxçıvan Dövlət Universiteti bu prosesdə mədəni-təhsil sintezinin uğurlu modelini təqdim edir. Universitetdə fəaliyyət göstərən NDU "Simfonik orkestri", "Xalq çalğı alətləri orkestri", "Qədim xalq çalğı alətləri ansamblı", "İnstrumental ansambl" və "Caz qrupu" milli musiqi irsinin qorunması ilə yanaşı, onun müasir janrlarla sintezini təmin edir. NDU nəzdində fəaliyyət göstərən musiqi alətləri laboratoriyası isə milli musiqi alətlərinin bərpası, elmi araşdırılması və təkmilləşdirilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır.



Naxçıvan Musiqi Kollecinin orta ixtisas təhsili müəssisəsi kimi Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərməsi ilə formalaşan təhsil və yaradıcılıq əlaqələri regionda peşəkar musiqi kadrlarının hazırlanmasına, ustad-şagird ənənəsinin müasir ali təhsil modeli ilə uzlaşdırılmasına geniş imkanlar yaradır. Festival və konsertlər, gənc ifaçılar üçün müsabiqələr, ustad dərsləri və mədəni layihələr Naxçıvanın musiqi həyatını canlandırmaqla yanaşı, onu ölkənin mədəni inkişafında aparıcı mərkəzlərdən birinə çevirir.

Beynəlxalq festivallar, mədəniyyət günləri və mədəni diplomatiya çərçivəsində həyata keçirilən layihələr Naxçıvan musiqi mədəniyyətinin Azərbaycan brendi kimi təqdim olunmasına xidmət edir. 2040 vizyonu çərçivəsində bu regionun mədəniyyəti artıq regional deyil, qlobal mədəni proseslərin fəal iştirakçısı kimi nəzərdə tutulur.

Nəticə etibarilə, "Azərbaycan Mədəniyyəti – 2040: Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" milli irsin qorunması ilə müasir inkişaf arasında strateji körpü rolunu oynayır. Bu konsepsiyanın uğurlu icrası məhz Naxçıvan kimi zəngin mədəni mühitlərdə həyata keçirilən real və sistemli addımlarla ölçüləcək. Naxçıvan musiqi mədəniyyəti Akademik səviyyədə Naxçıvan Dövlət Universitetinin elmi-tədris potensialı, fəaliyyət göstərən musiqi kollektivləri və yaradıcı layihələr vasitəsilə 2040-cı ilə doğru Azərbaycan mədəniyyətinin aparıcı lokomotivlərindən biri kimi çıxış etmək gücünə malikdir. Bu model milli musiqi irsinin elmi əsaslarla qorunmasını, yaradıcı şəkildə inkişafını və gələcək nəsillərə ötürülməsini təmin etməklə yanaşı, dövlətin mədəniyyət siyasətinin regionlarda praktik və dayanıqlı reallaşmasının bariz nümunəsi kimi öz əhəmiyyətini qoruyacaq.

*Fətəli Axundzadə*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı*

# Chatbotlar həyatımızı necə dəyişir?

Son illərdə süni intellekt texnologiyalarının sürətlə inkişafı gündəlik həyatımıza yeni anlayışlar və imkanlar gətirib. Bu yeniliklərin ən çox diqqət çəkən nümunələrindən biri chatbotlar, yəni söhbət robotlarıdır. Chatbotlar insanlarla yazılı və ya səsli şəkildə ünsiyyət qura bilən, sualları cavablandıran, məlumat təqdim edən və müxtəlif əməliyyatları yerinə yetirən süni intellekt əsaslı proqramlardır. Əvvəllər sadə və məhdud funksiyalara malik olan bu sistemlər bu gün artıq daha ağıllı, çevik və öyrənə bilən formaya keçib.

Chatbotların geniş yayılmasının əsas səbəblərindən biri onların fasiləsiz xidmət göstərmək imkanına malik olmasıdır. Günün istənilən saatında istifadəçilərin suallarına cavab verməsi, məlumatlandırma aparması və ilkin dəstək təqdim etməsi xüsusilə bank, e-ticarət, təhsil və dövlət xidmətlərində mühüm üstünlük yaradır. Müəssisələr üçün bu texnologiya həm vaxt itkisinin qarşısını alır, həm də insan resurslarına olan yükü azaldır. Bir chatbot eyni anda yüzlərlə istifadəçi ilə ünsiyyət qura bildiyi üçün xidmət sürəti və ümumi səmərəlilik əhəmiyyətli dərəcədə artır.

Müasir chatbotların daha bir mühüm üstünlüyü fərdiləşdirmə imkanlarıdır. İstifadəçi davranışlarını və əvvəlki sorğuları analiz edən botlar zamanla daha uyğun və məqsədyönlü cavablar təqdim edə bilir. Bu xüsusiyyət xüsusilə onlayn alış-veriş platformalarında və təhsil mühitində istifadəçi təcrübəsini xeyli yaxşılaşdırır. Eyni zamanda chatbotlar istifadəçilərdən toplanan məlumatlar əsasında analiz apararaq müəssisələrə qərarvermə prosesində dəstək olur.

Bununla yanaşı, chatbotların tətbiqi müəyyən nöqsan və risklərlə də müşayiət olunur. Ən çox qeyd edilən problemlərdən biri insan ünsiyyətinin emosional tərəfinin tam əvəz edilə bilməməsidir. Bəzi istifadəçilər real insanla ünsiyyətə üstünlük verir və chatbotlarla qarşılıqlı əlaqəni soyuq və mexaniki hesab edir. Digər tərəfdən, mürəkkəb və qeyri-standart suallar zamanı botların səhv və ya qeyri-dəqiq cavab verməsi mümkündür. Bu isə xüsusilə səhiyyə, hüquq və maliyyə kimi həssas sahələrdə ciddi problemlərə yol aça bilər.

Təhlükəsizlik və məxfilik məsələləri də chatbot texnologiyalarının ən həssas tərəflərindən sayılır. İstifadəçilərin şəxsi məlumatlarının toplanması və emalı zamanı bu məlumatların qorunması, qanunvericiliyə uyğun saxlanılması vacib şərtdir. Əks halda, məlumat sızmaları və etik problemlər yarana bilər. Bu səbəbdən chatbot sistemlərinin hazırlanması və tətbiqi zamanı hüquqi və etik prinsiplərin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır.

Son dövrlərdə chatbot sahəsində baş verən yeniliklər bu texnologiyanın imkanlarını daha da genişləndirir. Süni intellektin inkişafı ilə chatbotlar artıq yalnız mətnlə deyil, səs, şəkil və video ilə də işləyə bilir. Səs əsaslı virtual köməkçilər, artırılmış reallıqla inteqrasiya olunan botlar və "ağıllı" cihazlarla əlaqə quran sistemlər yaxın gələcəkdə chatbotların daha geniş sahələrdə tətbiq olunacağını göstərir. Təhsil, media və yaradıcı sahələrdə generativ süni intellektə əsaslanan chatbotların rolu getdikcə artır.




Nəticə etibarilə, chatbotlar müasir rəqəmsal cəmiyyətin formalaşmasında mühüm rol oynayan texnologiyalardan biridir. Onlar düzgün və məqsədyönlü istifadə edildikdə həm istifadəçilər, həm də müəssisələr üçün böyük faydalar yaradır. Lakin bu texnologiyanın tətbiqi zamanı onun texniki məhdudiyyətləri, etik tərəfləri və təhlükəsizlik riskləri də nəzərə alınmalıdır. Balanslı yanaşma və məsuliyyətli istifadə chatbotların cəmiyyət üçün daha faydalı və etibarlı alətə çevrilməsinə imkan verə bilər.

*Rəhimə Hacıyeva*
*"Elektroenergetika mühəndisliyi" kafedrasının laborantı*

# Mobil dünyamızın işığı və kölgəsi

Hər gün həyatımızın ritmini mobil cihazlar müəyyən edir. Bir zamanlar yalnız zəng etmək və saata baxmaq üçün əlimizə aldığımız bu kiçik cihazlar indi ünsiyyətimizin, düşüncə tərzimizin və sosial münasibətlərimizin mərkəzinə çevrilib. Hər mesaj, hər bildiriş, hər zəng bizim duyğularımıza sanki incə bir toxunuş edir.

Mobil telefonlar həyatımızda açar rolunu oynayır, bir çox sahədə əvəzsiz imkanlar təqdim edir. Bu kiçik cihazlar vasitəsilə sosial mediada yeni dostluqlar qurmaq mümkündür. Bəzən insanlar üz-üzə ünsiyyətdə utana, sözlərini ifadə etməkdə çəkinə bilirlər, lakin ekran arxasında rahatlıqla əlaqə qura və dostluqlarını genişləndirə bilirlər. Belə anlarda sosial çevrə genişlənir, ünsiyyət bacarıqları inkişaf edir və fərdlər öz dünyalarını daha açıq şəkildə paylaşa bilirlər.

Eyni zamanda, mobil telefonlar uzaqda olan yaxınlarımızla əlaqə qurmağa imkan verir. Saniyələr içində mesajlar, zənglər – səslər və video zənglər vasitəsilə qəlbimizdəki məsafələri aradan qaldırmaq mümkündür. Bu, xüsusilə səyahət zamanı və ya uzun məsafələrdə sevdiklərimizdən uzaqda olduğumuz anlarda əvəzsiz bir dəstəkdir.

Təhsil sahəsində də telefonlar həyati rol oynayır. Dərsliklər, onlayn kurslar və müxtəlif proqramlar indi sadəcə bir toxunuş uzaqlığındadır. İstənilən məlumatı kitab səhifələrində axtarmağa vaxt itirmək əvəzinə, smartfonla sürətli və rahat şəkildə əldə etmək mümkündür. Bu, bilik səviyyəsini artırır, öyrənmə prosesini daha maraqlı və əlçatan edir.



Amma hər işığın kölgəsi olduğu kimi, mobil texnologiyanın da mənfi tərəfləri var. Bəzən telefonlara həddindən artıq bağlılıq yaranır və insanlar psixoloji dəyişikliklər yaşayırlar. Sosial mediada özlərini xoşbəxt və uğurlu göstərməyə çalışırlar, lakin reallıq çox vaxt fərqli olur. Başqalarının "ideal" həyatına baxaraq özünü müqayisə etmək daxili narahatlıq, stress, emosional boşluq və qeyri-adekvatlıq yaradır.

Davamlı ekran qarşısında qalmaq diqqəti dağıdır və stresi artırır. Həddindən artıq telefon istifadəsi yalnız psixoloji və sosial təsirlərlə məhdudlaşmır: fiziki sağlamlıq üçün də ciddi risklər yaradır. Uzun müddət ekran qarşısında qalmaq görmənin zəifləməsinə, baş ağrılarına və müxtəlif sağlamlıq problemlərinə səbəb olur.

Psixoloqlar bildirirlər ki, ekran qarşısında uzun saatlar keçirmək ailədaxili emosional yaxınlığı zəiflədir və dialoqu məhdudlaşdırır. Bəzən ailələr yalnız yemək vaxtı bir araya gəlir, lakin bu da tam ünsiyyətlə keçmir — hər kəs yeməyini yeyərkən telefon ekranına baxa-baxa öz virtual dünyasında itir. Eyni otaqda, eyni masanın ətrafında olsaq da, hər kəs sanki ayrı dünyalarda yaşayır.

Sevdiklərimizə kifayət qədər diqqət ayırmadıqca, aramızdakı sayğı və anlayış zəifləyir. Nəticədə insanlar əvvəlki isti ailə anlarını darıxaraq xatırlayır və sevdikləri ilə birlikdə olmaq arzusunu daha çox hiss edirlər.

Nənə və babalarımızla, dostlarla keçirdiyimiz vaxtın dəyəri əvəzsizdir. Onlarla söhbət etmək, birlikdə gülmək və xatirələr paylaşmaq qəlbimizə istilik gətirir, ruhumuzu doyurur. Lakin telefon ekranına baxa-baxa keçən saatlar bu qiymətli anların yerini tutmur. Həyatın həqiqi gözəlliyi məhz belə sadə, amma mənalı anlarda gizlənib — sevdiklərimizlə birlikdə keçirdiyimiz xatirələrdə, səmimi gülüşlərdə və isti söhbətlərdə.

Bu mənfi təsirləri azaltmağın ən effektiv yollarından biri telefona fasilə verməkdir. Müəyyən bir müddət ərzində mobil cihazlardan uzaqlaşmaq, sosial mediadan istifadəyə fasilə vermək və ailə üzvləri ilə daha çox real ünsiyyət qurmaq deməkdir. Məsələn, yemək zamanı telefonu kənara qoymaq, axşam saatlarında ekran qarşısında keçirdiyimiz vaxtı azaltmaq və həftədə bir gün sosial mühitdən kənar olaraq sevdiklərimizlə keyfiyyətli vaxt keçirmək böyük fərq yarada bilər.

Texnologiyanın həyatımıza gətirdiyi faydalar olduğu kimi, zərərləri də var. Ona görə də ondan istifadə edərkən həddi bilmək, ölçünü qorumaq vacibdir. Nizami Gəncəvinin sözləri bu həqiqəti gözəl bir metafora ilə izah edir:

"Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da".

Eyni şəkildə, texnologiya da bizə fayda gətirir, amma həddindən artıq istifadə edildikdə ziyan verə bilər. Bizim vəzifəmiz onu həyatımıza məqsədyönlü şəkildə daxil etməkdir.

Texnologiya bizi idarə etməməlidir; əksinə, biz ona yön verməliyik. Telefonlar həyatımıza işıq sala bilər, lakin diqqətsiz istifadə edildikdə ailə istiliyini kölgədə qoya bilər. Əsas məqsədimiz ekranlara deyil, sevdiklərimizlə keçirdiyimiz anlara və özümüzə ayırdığımız zamana diqqət etmək olmalıdır.

*Duyqu İbrahimli*
*Jurnalistika ixtisası üzrə*
*III kurs tələbəsi*

# İsgəndəriyyə Kitabxanası — antik dünyanın bilik mərkəzi

Antik dövrün ən möhtəşəm elm və mədəniyyət mərkəzlərindən biri hesab olunan İsgəndəriyyə Kitabxanası eramızdan əvvəl III əsrdə Misirdə qurulmuşdur. Kitabxana Makedoniyalı İsgəndərin ölümündən sonra Misiri idarə edən Ptolemeylər sülaləsinin təşəbbüsü ilə yaradılmışdır. Ən çox qəbul edilən fikrə görə, kitabxananın əsası I Ptolemey tərəfindən qoyulmuş, onun varisi II Ptolemey dövründə isə daha da genişləndirilmişdir.

Kitabxananın əsas məqsədi dünyanın müxtəlif bölgələrindən bilikləri toplamaq idi. Tarixi mənbələrə əsasən, burada 400 mindən 700 minə qədər papirus rulonunun saxlanıldığı ehtimal edilir. Fəlsəfə, riyaziyyat, astronomiya, tibb, coğrafiya və ədəbiyyat kimi sahələrə aid mühüm əsərlər burada qorunurdu.

Lakin burada toplanan yalnız kitablar deyildi — insan ağlının sualları idi. Çünki kitabxana sadəcə informasiya anbarı deyil, düşüncənin mərkəzidir. Bilik toplamaq, əslində, insanın öz məhdudluğunu qəbul etməsi və onu aşmaq cəhdidir. Bu baxımdan İsgəndəriyyə Kitabxanası antik dünyanın intellektual cəsarət simvolu idi.

İsgəndəriyyə təkcə kitabların saxlanıldığı yer deyildi; o həm də alimlərin toplaşdığı elmi mərkəz idi. Antik dünyanın tanınmış alimləri burada fəaliyyət göstərmişdir. Məsələn, yunan riyaziyyatçısı Evklid öz məşhur "Elementlər" əsərini burada yazmışdır. Həmçinin astronom və coğrafiyaçı Eratosfen Yer kürəsinin çevrəsini ilk dəfə elmi üsulla hesablamışdır.

Bu alimlərin fəaliyyəti göstərir ki, bilik sərhəd tanımır. Milliyyət, dil və mədəni fərqlər burada arxa plana keçirdi; əsas olan həqiqətə çatmaq idi. Bəlkə də, kitabxananın ən böyük gücü məhz burada idi. O fərqli düşüncələri bir dam altında birləşdirə bilirdi.

Kitabxananın məhv olması ilə bağlı dəqiq məlumat yoxdur. Tarixçilər arasında müxtəlif fikirlər mövcuddur. Bəzi mənbələr onun eramızdan əvvəl 48-ci ildə Yuli Sezar tərəfindən İsgəndəriyyədə aparılan hərbi əməliyyatlar zamanı baş verən yanğın nəticəsində zərər



gördüyünü bildirir. Digər ehtimallara görə isə kitabxana sonrakı əsrlərdə baş verən siyasi və dini qarşıdurmalar nəticəsində tədricən məhv edilmişdir.

Ancaq burada daha dərin bir məqam var: tarix bizə göstərir ki, bilik həmişə güc olmuşdur. Güc isə bəzən qorxu yaradır. Fərqli düşüncə tərzi, yeni ideya və alternativ baxışlar hakim strukturlar üçün təhlükə hesab edilə bilər. Bu baxımdan İsgəndəriyyə Kitabxanasının taleyi yalnız fiziki məhv deyil, həm də düşüncənin nə qədər həssas olduğunu göstərən bir simvoldur.

İsgəndəriyyə Kitabxanasının dağıdılması dünya elmi və mədəniyyəti üçün böyük itki hesab olunur. Burada qorunan bir çox əsərlər bəşəriyyət üçün əbədi olaraq itirilmişdir. Lakin paradoks ondadır ki, kitabxana fiziki olaraq yox olsa da, onun ideyası yaşamışdır. Çünki bilik divarlara bağlı deyil, o, nəsildən-nəslə ötürülən bir irsdir.

Bu gün müasir kitabxanalar və rəqəmsal arxivlər həmin ənənənin davamıdır. Lakin əsas sual dəyişməz qalır: biz bilik toplamaqla kifayətlənirik, yoxsa onu anlamağa və qorumağa çalışırıq?

İsgəndəriyyə Kitabxanası tarixdə bilik və mədəniyyətin gücünü nümayiş etdirən ən böyük nümunələrdən biri kimi qalmaqdadır. O bizə xatırladır ki, sivilizasiyalar silah gücü ilə deyil, düşüncə gücü ilə yüksəlir və düşüncəni qorumaq hər dövrün ən böyük məsuliyyətidir.

*Onur Cəbrayılov*
*Jurnalistika ixtisası üzrə*
*I kurs tələbəsi*

# Bəs sizin işıqlı tərəfiniz haradır?

Nağıllardakı o gizli xəzinə əslində elə uşaqlığımızın özü deyilmi? Biz böyüdükcə coğrafiyalarımız dəyişdi, şəhərlərimiz böyüdü, amma qəlbimizdəki o "it hürən tərəf" və "işıq gələn tərəfə qaçış" heç vaxt köhnəlmədi. Heç düşünmüsünüzmü, Cırtdan o qaranlıq gecədə "it hürən tərəfə yox, işıq gələn tərəfə gedək" deyəndə əslində bizə nəyi pıçıldayırdı? Bəlkə də, o bizə deyirdi ki, qaranlıqdan qorxsan da, cibindəki bir ovuc qoz-fındığın verdiyi o sonsuz cəsarəti heç vaxt itirmə! Çünki uşaqlıq dünyanın hələ kirlənmədiyi, hər şeyin bir ovuca sığdığı o sehrli andır.

Fransız mütəfəkkiri Jan Jak Russo deyirdi: "Uşaqlıq ağlın yuxusudur". Amma bu elə bir yuxudur ki, insan ömrü boyu belə yenidən həmin xəyala dalmaq həsrəti ilə yaşayır. O "it hürən tərəf" dediyimiz yer əslində böyüklərin qayğılarla və maskalarla dolu soyuq dünyası, o "işıq gələn tərəf" isə anamızın mətbəxindən süzülən, burnumuza dəyən qızarmış kartofun doğma qoxusu deyildimi? Biz o vaxtlar "xoşbəxtlik nədir?" deyə soruşmazdıq, çünki xoşbəxtlik dizimizdəki yaranın qaysaq bağlaması və ya küçədən gələn bir dost səsi idi. Sizcə də uşaqlığın ən sürətli internet şəbəkəsi məhəllənin o başından: "Gəlirsən həyətə?", - deyə bağıran dostumuzun səsi deyildimi?

Antuan de Sent-Ekzüperinin "Balaca Şahzadə" əsərində deyilir ki, "bütün böyüklər bir vaxtlar uşaq olublar, amma onların çox azı bunu xatırlayır". Şükürlər olsun ki, biz xatırlayanlardanıq. Çünki bizim uşaqlığımızda telefon bildirişi yox idi. Anamızın pəncərədən çıxıb "evə gəl, daha gecdir" deyəcəyi vaxta qədər həmin anı yaşamaq bizim ən həyəcanlı gözləntimiz idi.

Ən böyük "strateji" dərdimiz Cırtdan kimi "divi necə aldatmaq" yox, "yeddi şüşə" oynayanda o sonuncu daşı devirib-devirməyəcəyimiz idi. Ən böyük utancaqlığımız isə dostumuzun qapısını döyüb anasından icazə almaq idi. Bayramlıq təzə ayaqqabılarımızla yatanda özümüzü elə hiss edirdik ki, sanki onları geyinsək, nağıldakı divlərin üstündən bir tullanışla keçə bilərik. "Gizlənqaç"da yer tapmayanda anamızın həyətdən asdığı o nəm mələfələrin arasına sığınmaq bizə dünyanın ən təhlükəsiz və gizlin yeri kimi gəlirdi. Bizim o mələfələrin arxasındakı sığınacağımız bu günün göydələnlərindən daha möhkəm və etibarlı idi.

Uşaqlıq – hər şeyin sonunda "odun gətirməyə mən gedəcəm" deyəcək qədər inadkar, amma bir gülüşə bütün dünyanı bağışlayacaq qədər saf olduğumuz o nağıl yoludur. Artıq biz böyüdük, dünyamız genişləndi, amma ruhumuz hələ də o işıq gələn tərəfə qaçmaq istəyir. Uşaqlıq – Cırtdanın o qaranlıq gecədə seçdiyi "işıq gələn tərəf" kimi insanın bütün ömrü boyu ruhunu isidən yeganə sönməz çıraqdır.

Bəs sizin işıqlı tərəfiniz haradır?

*Gülçin Qənbərova*
*Jurnalistika ixtisası üzrə*
*II kurs tələbəsi*

# Şərqi Zəngəzur və Qarabağın qaranlıq turizm inkişaf imkanları

Informasiya texnologiyaları dövründə müasir insanların ənənəvi məqsədlər üçün səyahət etməklə kifayətlənməməsi səbəbindən bu mövzu bu gün son dərəcə aktualdır. Sübut olunduğu kimi, turizmin müxtəlif ekstremal və qeyri-ənənəvi növləri populyarlıq qazanır. Təqdim olunan işin məqsədi qara turizmin mövcud formalarının variantlarını göstərmək, yeni səyahət növünün istiqamətlərini vurğulamaq, həmçinin bu tur növünün cəlbediciliyinin səbəblərini təhlil etməkdir. Səyyahlar ölüm və dağıntı ilə əlaqəli yerləri ziyarət etməyə başladığından, “qaranlıq turizm” anlayışı tədricən leksikona daxil oldu. Ekvivalent anlayışlar qara turizm, qaranlıq turizm, qəm turizmi, thanaturizm və s. ola bilər. Son elmi araşdırmalar göstərir ki, keçmiş fəlakətlərin çoxsaylı yerləri, ölümə həsr olunmuş muzeylər, qəbiristanlıqlar və sərdabələr, müxtəlif dağıntılar dünyanın hər yerindən milyonlarla turisti cəlb edir. Mütəxəssislər arasında Pompeyi, Misir piramidalarını, abidələri, fəlakətlər və təbii fəlakətlər yerlərini, hətta qəbiristanlıqlara ən adi ekskursiyaları “qara” attraksionlar kimi göstərmək olar. Bundan əlavə, bir çox yerli və xarici turizm agentliklərinin təcrübəsi izah edir ki, çox vaxt turistlər qasırğalar, tayfunlar, sunamilər və digər təbii fəlakətlərdən sonra fəallaşırlar. “Fəlakət yerlərinə (zəlzələlər, daşqınlar, vulkan püskürmələri, texnogen fəlakətlər, məsələn, vertolyotdan Çernobıl AES-ə baxış) və ictimai edamların düşünülməsi ilə bağlı ekstremal vəziyyətlərə ekskursiyalar “fəlakət turları” adlanır.

Nəticə etibarı ilə onu da demək olar ki, qara turizmin auditoriyası olduqca geniş ola bilər ki, bu da bu turizm növünün yüksək potensialını göstərir, çünki turistlərin qaranlıq ərazilərə getməsinin çoxlu səbəbləri var. Bundan əlavə, bu turizm növünün inkişaf səviyyəsinin aşağı olması da canlı müzakirə mövzusu olan bu mövzuya aktuallıq əlavə edir. Qeyd etmək lazımdır ki, bir sıra ölkələrdə “qara turizm” onların iqtisadiyyatında mühüm yer tutur. Müvafiq olaraq, son onilliklərdə xarici iqtisadiyyat və turizm elmində əhəmiyyətli tədqiqatlar aparılmışdır. Bu fenomeni tədqiq edən elm adamları qaranlıq turizmin bütün dünyada insanlar arasında niyə bu qədər populyar olması ilə bağlı razılaşmırlar. Bəziləri inanır ki, bu yolla səyahətçilər öz emosional həyəcanlarını təmin edirlər, bəziləri isə əmindirlər ki, kütləvi məzarlıq və ya qətl yerlərini ziyarət etmək insanda eyforiya yaradır.

Oksford lüğəti “qaranlıq turizmi” ölüm və iztirablarla əlaqəli yerlərə səyahəti əhatə edən turizm kimi təyin edir. Qeyd etmək vacibdir ki, şotlandiyalı alimlər Malkolm Foley və Con Lennon qaranlıq turizmi “əmtəələnmiş ölüm və fəlakət yerlərinin təmsili və istehlakı ilə bağlı fenomen” kimi müəyyən edirlər . Tədqiqatçıların fikrincə, qaranlıq turizm əsasən postmodern fenomendir. Bu o deməkdir ki, müasir dünyada biz tarixin bəzi məqamlarını yenidən düşünməyə çalışırıq və qaranlıq turizm buna töhfə verə bilər.

Şotlandiya Turizm Araşdırmaları Mərkəzinin professoru, “Tanatourizm: Qaranlığa bələdçi” kitabının müəllifi Tony Seaton da qaranlıq turizmin mahiyyətini anlamağa çalışır. O, thanaturizmi “tamamilə və ya qismən ölümlə simvolik qarşılaşma arzusu ilə, xüsusən də zoraki ölümlə motivasiya olunmuş bir yerə səyahət” kimi müəyyən edir. Rusiyalı tədqiqatçılar da Rusiya turizm biznesi üçün bu tamamilə yeni fenomeni müəyyənləşdirməyə çalışırlar. Professor E.V.Bugria “qaranlıq turizmi” qəbiristanlıqları və dəfnləri ziyarət etmək, fəlakət (ekoloji və ya texnogen) yerlərə səyahətlər, təbii fəlakətlər və kütləvi ölümləri əhatə edən xüsusi bir turizm növü kimi dəyərləndirir. Kulturoloq Aleksey Krivolap deyir: “Biz bunun arxasında insan həyatını görmürük və bunu bir oyun kimi qəbul edirik”.



Qeyd edək ki, xarici media qara turizmin məqsədlərini belə görür: Midstream, 1 may 2005-ci il: ABŞ-a gələrək Vaşinqtonda yerləşən Holokost Memorial Muzeyini ziyarət edərkən ekspertlərin “qara turizm” adlandırdığı tədbirin iştirakçısına çevrilirsən” – baş vermiş qəddarlıq və ya faciəli hadisələrlə tanışlıq olur. The Observer, 23 oktyabr 2005-ci il: Qaranlıq turizm saytları bəşəriyyətin ən pis həddimizi cilovlamaqda davam edən uğursuzluğunun mühüm sübutudur və düzgün idarə olunarsa, keçmişimizin ən qaranlıq elementlərindən dərs almağa kömək edə bilər. Qara turizmin ümumiləşdirilmiş tərifi təklif edilmişdir. “Qara turizm” dövlət tarixində faciəli hadisələrlə – müharibələr, dağıntılar, insan iztirabları, təbii fəlakətlərlə bağlı turizmdə yeni istiqamətdir və turistlərdə müəyyən emosiyalar oyatmağa qadirdir. “Qara” turizm obyektlərinə maraq aşağıdakı səbəblərlə izah olunur: “Maraq; yenilik axtarmaq; mədəni irs; yaddaş; emosiyalar; medianın rolu”. Turizmin digər sahələri kimi qara turizmin də zəif tərəfləri və problemləri var ki, bu da istər-istəməz tənqidlərə səbəb olur. Problemlərdən biri də belə yerlərə turizm məqsədi ilə səfər etməyin nə dərəcədə etik olması məsələsidir. Qaranlıq turizmin növbəti mühüm məsələsi sənaye turizmi və ya fəlakət turizmi ilə məşğul olan turistlərin təhlükəsizliyinin təmin edilməsidir. Müasir tarix bu cür turların qeyri-müntəzəmliyi, turistlərin məsuliyyətsizliyi və sənaye turizmi zonalarına nəzarətin olmaması səbəbindən turistlərin belə yerlərdə ölməsi və ya xəsarət alması hallarına çox bəllidir. Təbii ki, insanlar hadisələrlə bağlı faktları bilməlidirlər, lakin faciəvi hadisələrin qurbanlarına da hörmət etmək lazımdır. Təəssüf ki, bir çox turist bu cür səyahətləri əyləncə kimi qəbul edir. Tədqiqatın müzakirəsi. Qaranlıq turizm və Qarabağ və Şərqi Zəngəzur! Tədqiqat bizi bu fikrə gətirdi ki, qaranlıq yerlərin əsl cazibəsi onların ölüm və ağrı ilə əlaqələndirilməsi deyil, tarixi dəyəridir. Belə ki, “qaranlıq turizm” cəmiyyəti dağıntıdan, təbii fəlakətdən və ya müharibə fəlakətindən və s.-dən qoruyan möhkəmlik vasitəsi kimi çıxış edə bilər. Turistlər, məsələn, Qarabağ və Şərqi Zəngəzur kimi bölgələrdə və ya ölümə həsr olunmuş muzeydə olanda, şübhəsiz ki, müasir və mütərəqqi cəmiyyətdə oxşar mənəvi qırğınların necə baş verə biləcəyi barədə düşünməyə başlayacaqlar. Necə ola bilər ki, insan öz əxlaqi-mənəvi simasını itirib, 30 ildir ki, erməni qəsbkarlarının işğal altında olmuş ərazilərdə həyata keçirdikləri böyük dağıntılara yol aça bilər? Turistlərin təklif olunan istiqamətlərdə gördükləri hər şey onların yaddaşına həkk olunub. Yaddaş keçmişlə əlaqələrimizi və onu necə dəyərləndirdiyimizi formalaşdıran insan fəaliyyətinin vacib hissəsidir. Yaddaş bizi indiki zamana çatdırır. Yaddaş təkcə keçmiş hadisələri qeyd etmək üçün deyil, həm də insan vicdanını işə salmaq üçün səfərbər olunur. Ancaq deyildiyi kimi, dərdini özünüz yaşamadan başqasının dərdini anlamaq mümkün deyil, amma həqiqət budur ki, səfər zamanı təmsil olunan xalqın tarixi-mədəni irsinin əhəmiyyətini dərk edən ziyarətçilər öz daxili hisslərini ortaya qoyurlar. Eyni zamanda, yerli əhalinin həyatına inteqrasiya edərək faciəni anlayır və hiss edirlər. Tarix sanki ziyarətçinin gözü önündə canlanır və onun bir hissəsinə çevrilir. Bundan əlavə, ziyarətçilər bu insanlar haqqında bəzi tarixi və mədəni məlumatları öyrənmək imkanı əldə edirlər. Fikrimizcə, bu, insanların qaranlıq istiqamətlərə cəlb edilməsinin ən mühüm səbəbi ola bilər. 30 illik ədalətsiz erməni işğalının Azərbaycanın mədəni irsinə böyük ziyan vurduğu bu gün aydın görünür. Qarabağın vəhşi münasibəti, şəhər mühəndisi infrastrukturunun, memarlıq şedevrlərinin, tarixi, dini və mədəni əhəmiyyətli abidələrin, məscidlərin, türbələrin, monastırların, kilsələrin, qəbiristanlıqların, tikililərin və təbii müxtəlifliyin yolverilməz şəkildə dağıdılması erməni işğalçılarının bütün iyrənc mahiyyətini ifadə edir. İşğal olunmuş ərazilərdə hər şeyi məhv etdilər. Ermənistan silahlı münaqişələr zamanı mədəni sərvətlərin mühafizəsi haqqında 1954-cü il Haaqa Konvensiyasının və Qeyri-qanuni idxal, ixrac və köçürmələrin qadağan edilməsi və qarşısının alınması tədbirləri haqqında 1970-ci il Paris Konvensiyasının üzvü olmasına baxmayaraq, danılmaz faktlar və sübutlar mövcuddur. Onlar, işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini dağıdıb, korlayıb, talan etmişlər. İşğaldan azad edilən torpaqlarımızda aparılan quruculuq işləri zamanı aşkarlanan kütləvi məzarlıqların sayının artması onu deməyə əsas verir ki, ermənilər azərbaycanlılara qarşı yüzlərlə soyqırımı həyata keçiriblər. Aşkarlanan məzarlıqların Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş, öldürülmüş hərbçilərə, mülki şəxslərə aid olduğu qeyd edilir. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşların ehtimal edilən məzar yerlərinin müəyyən edilməsi istiqamətində axtarış tədbirləri həyata keçirilir. Minaların basdırılmasına görə hər yerdə qazıntı işləri aparmaq hələlik mümkün deyil. Lakin minalardan təmizlənmiş ərazilərdə qazıntılar nəticəsində belə məzarlıqlar aşkarlanır. Kəlbəcərin Başlıbel, Xocavəndin Edilli, Füzuli şəhəri, Xocalı rayonu Fərrux yüksəkliyi, Pirlər kəndi, Əsgəran qəsəbəsi, Ağdam rayonu Əliağalı və Sarıcalı kəndləri, Şuşa həbsxanası, Daşalt, Malıbəyli və Quşçu kimi kəndlərindən tapılan kütləvi məzarlıqlar buna əyani sübutdur. Nəticə unudulmamalıdır ki, hər bir ölkədə qədim dövrlərə gedib çıxan kədərli tarixi ilə tanınan bir məkan var. Məsələn, ictimai ölüm və edam yerləri: Kolizey ölümün təbii bir prosesdən əmtəəyə çevrildiyi yerlərin ən məşhurudur. Bu, dünyanın möcüzələrindən biri və Romanın simvollarından biri olmaqla yanaşı, həm də tikinti zamanı çoxlu qulların öldüyü, bundan sonra şəhər əhalisinin qladiator döyüşlərini seyr edərək əyləndiyi yerdir. İspaniyada öküz döyüşləri və s. xatırlamaq kifayətdir. Bu kimi misallar çoxdur. Çağımızda dünyada dağıdılmış əşyaların qorunub saxlanılması və ziyarətçilərə göstərilməsi təcrübəsi var. Məsələn, Polşadakı Auschwitz Memorial (həmçinin Alman adı AuschwitzBirkenau ilə tanınır); Yerusəlimdəki Holokost Muzeyi; Yaponiyadakı Hirosima Sülh Memorial Parkı; Vyetnamda Hoi An; Vilnusdəki Soyqırım Qurbanları Muzeyi; Kambocada Tuol Sleng Soyqırımı Muzeyi. Vurğulamaq lazımdır ki, tədqiqat belə bir qənaətə gəlməyə imkan verir ki, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında açıq səma altında muzeylərin yaradılması nəzərə alınmaqla qaranlıq turizmin inkişafı, əsasən, muzeylərin qorunub saxlanması, nümayişi və populyarlaşdırılması üçün əhəmiyyətli dərəcədə geniş imkanlarla bağlıdır. O, tarixi-mədəni irsdir və müasir şəraitdə turizmin perspektiv inkişaf yollarından biridir.

*Arzu Əsgərov*
***Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecin müəllimi***

Baş redaktor:
**Şəhla Şirəliyeva**
*shehlashiraliyeva@ndu.edu.az*

**Ünvan:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
**Telefon:** 544-08-61 (1360)
*yenifikir.ndu@gmail.com*

Qeydiyyat № 330
Sifariş № 374
**Tiraj 350**

Dizayner:
**SAHİLƏ ABBASOVA**
*“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*